Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

15 NOYABR 2019-cu il

№ 203 (4101)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ALMANİYADA TUTULMUŞ MÜSAVATÇILARA DAİR CİNAYƏT ARAŞDIRMASI MÜSAVAT PARTİYASINADƏK UZANA BİLƏR - GİZLİ BİZNES...

səh. 5

Ermənistanın "faşist qəhrəmanlarına" qarşı Azərbaycan Prezidentinin başlatdığı mübarizə konkret nəticə verdi - Armavir demarşı...

səh. 3

Qəbələ dəmir yolu - Azərbaycan Prezidenti Sovet hakimiyyətinin səhvini düzəldir

səh. 10

Azərbaycanla müqayisədə Ermənistanın hərbi-iqtisadi çöküşünün yeni elementləri üzə çıxır...

səh. 9

Almaniyada cinayət ittihamı ilə tutulan mühacir müsavatçıların mühacirətdən əvvəlki həyatları...

səh. 4

Erməni lobbisinin ABŞ-da saxta "genosid" "marafonu" Senat komitəsində dayandırıldı...

səh. 6

Ərdoğanla Trampın "böyük razılaşması" - 67 illik hərbi müttəfiqlik xilas ediləcək, ya...

səh. 6

Nəvənin qanunsuz əməlinə görə babanı, hətta əmiləri hədəfə gətirən media qurulușları - Şəmsəddin Əliyevin timsalında...

səh. 12

Azərbaycanın Avrasiya nəqliyyat strategiyası özünü tam doğruldur - Tacikistan - Əfqanıstan - Türkmənistan dəmir yolu Azərbaycanla birləşdiriləcək

səh. 11



səh. 2

## Prezident dünya dini liderlərinə DQ münaqişəsinin tarixi mahiyyətini sadə şəkildə belə təqdim etdi - bolşeviklər Qarabağı «Azərbaycana verdi» yox, Azərbaycanın tərkibində saxladılar...



Azərbaycan hərbi büdcəni 20 faiz artırdı, Ermənistan dondurdu - Paşinyanın öz xalqı başında iki oyunu...

səh. 4

Rusiyada erməni faşistlərinə qarşı yürüş başladı - səfir Rusiyanı millətlərarası gərginliklə hədələdi...

səh. 7




Lapis-Lazuli və Bakı-Tiflis-Qars dəmir yollarının birləşdirilməsi - Azərbaycanın yeni nəqliyyat-tranzit imkanları...

səh. 10

səh. 8

Radikal müxalifətin rəzil durumu və bitməz inqilab arzuları...



səh. 3

"Radikal müxalifət Avropaya tək uydurma siyasi mühacirlər yox, həm də cinayət şəbəkəsi ixrac edirmiş"



səh. 12

Azərbaycanda qatarların sürəti 40 kilometrdən 140-a qaldırılsa...



səh. 15

Doktoranturaya qəbul qaydaları sadələşdirilir - gələcək alimlər hansı artıq problemlərdən qurtulur...



səh. 13

Şprislərlə bağlı milli standart - Azərbaycan tibb biznesi sahəsində ən qalmaqallı məsələ həll edildi...



# Prezident dünya dini liderlərinə DQ münaqişəsinin tarixi mahiyyətini sadə şəkildə belə təqdim etdi - bolşeviklər Qarabağı "Azərbaycana verdi" yox, Azərbaycanın tərkibində saxladılar...

**Noyabrın 14-də Bakıda Dünya Dini İiderlərinin II Sammiti başlayıb və Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sammitin açılış mərasimində iştirak ediblər. Sammit müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə nitq söyləyərək qismən deyib:**

- Bu beynəlxalq tədbirin çox böyük əhəmiyyəti var. Biz fəxr edirik ki, Azərbaycan bu mötəbər tədbirə ikinci dəfə ev sahibliyi edir. Bu bir daha onu göstərir ki, Azərbaycan dinlərarası dialoqun inkişafında öz önəmli rolunu oynayır və bundan sonra da oynayacaqdır...

... Bizim qədim tariximizi əks etdirən o cümlədən bizim dini abidələrimizdir. Bizim dini abidələrimiz, ilk növbədə, onu göstərir ki, Azərbaycan qədim diyardır. Digər tərəfdən onu göstərir ki, müxtəlif dövrlərdə müxtəlif dinlərin nümayəndələri Azərbaycanda yaşamış, yaratmış və gözəl tarixi miras qoymuşlar. Qeyd etməliyəm və biz fəxr edirik ki, İslam aləminin ən qədim məscidlərindən biri Azərbaycanda yerləşir. Şamaxı Cümə məscidi 743-cü ildə inşa edilmişdir, bir neçə il bundan əvvəl əsaslı təmir olunmuşdur. Bu məscid Dərbənd məscidindən sonra Qafqazın ən qədim məscididir.

Eyni zamanda, qədim dövlət olan Qafqaz Albaniyasının kilsəsi Azərbaycanın digər tarixi şəhəri - Şəkinin yaxınlığında yerləşir və bu kilsənin qədim tarixi var. Bu, Qafqazın ən qədim kilsələrindən biridir. Bakıda atəşpərəstlik məbədi - Atəşgah yerləşir. Bu da onu göstərir ki, zərdüştlük dininin Azərbaycanda qədim kökləri vardır. Sonrakı dövrlərdə rus pravoslav kilsələri, sinaqoqlar, katolik kilsəsi inşa edilmişdir.

... Azərbaycan o ölkədir ki, öz inkişafını, öz gələcəyini milli köklər üzərində qurubdur. Ənənəvi dəyərlər bizim üçün ən böyük sərvətdir. Biz çox şadıq ki, Azərbaycanda yetişən gənc nəsil milli ruhda, vətənpərvərlik ruhunda və eyni zamanda, ənənəvi dəyərlər ruhunda tərbiyə alır. Hesab edirəm ki, Bakıda keçirilən Zirvə görüşünün mövzularından biri də məhz bu, olacaq. Çünki biz görürük ki, dünyada, dünyanın müxtəlif yerlərində ənənəvi dəyərlərə qarşı kampaniya aparılır, onlar gözdən salınır, bizim üçün yad olan, bizim milli təfəkkürümüzə uyğun olmayan yeni "dəyərlər" aşılanır. Biz özümüzü və xüsusilə gənc nəslimizi bu yad və



bəd təsirdən qorumalıyıq. Ona görə hesab edirəm ki, ənənəvi dəyərlərin, ailə dəyərlərinin təbliğ edilməsi hamımızın işi olmalıdır. Yenə də deyirəm, Azərbaycanda bu istiqamətdə aparılan siyasət - həm dövlət, həm dini liderlər tərəfindən aparılan siyasət, hesab edirəm ki, çox böyük qiymətə layiqdir.

Azərbaycan multikulturalizm dəyərlərini təbliğ edən ölkələrdən biridir. Multikulturalizm Azərbaycanda həm həyat tərzidir, həm də dövlət siyasətidir.

... Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir. Dövlət-din münasibətlərinin əsasını ulu öndər Heydər Əliyev qoymuşdur. Heydər Əliyev Azərbaycan xalqının böyük oğludur və bütün dövrlərdə - həm sovet dövründə, həm müstəqillik dövründə xalqa ləyaqətlə xidmət etmişdir. Dövlət-din münasibətlərinin təməlini məhz Heydər Əliyev qoymuşdur, necə ki, müasir Azərbaycanın bütün başqa istiqamətlər üzrə inkişaf konsepsiyası onun adı ilə bağlıdır.

... Heydər Əliyev hakimiyyətə gələndən sonra, ilk növbədə, qanunsuz silahlı birləşmələrin tərk-silah edilməsi istiqamətində önəmli addımlar atdı, erməni işğalının qarşısını aldı və Azərbaycan işğal altında olmuş bəzi torpaqları geri qaytara bildi. Ölkədə sabitlik bərqərar oldu, inkişaf yoluna qədəm qoyuldu. Biz beynəlxalq təcriddən çıxa bildik, iqtisadi və siyasi islahatlar aparılmağa başlandı. O cümlədən dövlət-din münasibətlərinin formalaşması Heydər Əliyevin adı ilə bağlıdır. Eyni zamanda, şeyx həzrətləri bu istiqamətdə çox böyük fədakarlıq və fəaliyyət göstərmişdir. Mən bu işlərin şahidi kimi deyə bilərəm ki, Heydər Əliyevin və şeyx həzrətlərinin dostluğu dövlət-din münasibətlərinin formalaşmasında həlledici rol oynamışdır. Şeyx həzrətləri bu gün də dövlət-din münasibətlərinin sağlam zəmində davam etdirilməsi istiqamətində böyük işlər görür, Azərbaycanı dünyada təbliğ edir. Onun rəhbərliyi ilə aparılan işlər həm Azərbaycan xalqı tərəfindən, həm də dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Hər il bir neçə ölkədə şeyx həzrətlərinin təşəbbüsü və rəhbərliyi ilə mötəbər beynəlxalq tədbirlər keçirilir. Həm Azərbaycanda, həm Qafqazda, həm də dünyada böyük nüfuz qazanmış şeyx həzrətləri din-dövlət münasibətlərinin necə tənzimlənməsi istiqamətində atılan addımları ölçüb-biçir və bu addımlar ölkəmizin ümumi inkişafını dəstəkləyir.

... Dinlərarası dialoqdan danışarkən, əlbəttə ki, biz təkcə müsbət məqamların qeyd edilməsi ilə kifayətlənməməliyik. Eyni zamanda, münaqişələri din amilinə bağlamaq cəhdlərini də çox ciddi şəkildə pisləməliyik. Bu nümunələrdən biri uzun illər davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Bildirməliyəm ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. Azərbaycan xalqı əsrlərboyu bu torpaqda yaşayıb yaratmışdır və qədim xəritələrdə, eyni zamanda, Çar Rusiyasının XX əsrin əvvəllərində çap edilmiş xəritələrində Dağlıq Qarabağa aid olan ərazidə bütün toponimlər Azərbaycan mənşəlidir. Qarabağ xanlığı Azərbaycan xanlığı olmuşdur. Sadəcə olaraq, XIX əsrin əvvəllərində ermənilər Dağlıq Qarabağa köçürülmüşlər və XX əsrdə orada milli tərkib böyük dərəcədə deformasiyaya uğramışdır. Onu da bildirməliyəm ki, bolşevik inqilabından sonra respublikalar arasında cızılan xəritələrə gəldikdə, o vaxt bolşevik hökuməti tərəfindən qərar qəbul edilmişdir ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Bu, çox önəmli məqamdır, çünki tarixi təhrif etməkdə usta dərəcəsinə çatmış erməni tarixçiləri qeyd edirlər ki, Dağlıq Qarabağın Azərbaycana verilməsi haqqında qərar qəbul edilmişdir. Halbuki bu, belə deyil və tarixi sənədlər bunu göstərir, Dağlıq Qarabağı Azərbaycanın tərkibində saxlamaq haqqında qərar qəbul edilmişdir. Yəni bu, eyni zamanda, tarixi və siyasi məqamları əks etdirir.

Mən əminəm ki, bu Zirvə görüşünün çox böyük əhəmiyyəti olacaq və Bakıdan səslənən mesajlar lazımi ünvana çatacaq. Hesab edirəm ki, əsas istiqamətlərdən biri dini ayrı-seçkiliyə yol verməmək, ksenofobiya, islamofobiya, antisemitizmə qarşı birgə mübarizə aparmaq, dindən siyasi məqsədlər üçün istifadə etməmək, münaqişələrə dini don geyindirməmək, münaqişə zamanı tarixi-dini abidələri dağıtmamaq və ənənəvi dəyərləri təbliğ etməkdir. Hesab edirəm ki, dediyim bu məsələlər Azərbaycanın bu istiqamətdəki siyasətini əks etdirir. Əminəm ki, Zirvə görüşünün nəticələri bu istiqamətdə atılmış növbəti addım olacaqdır.

Sonra Prezident İlham Əliyevin Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında Sərəncamı oxunub.

İlham Əliyev "Heydər Əliyev" ordenini Şeyxülislam Allahşükür Paşazadəyə təqdim edib.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxış edib.

Sonra Moskvanın və bütün Rusiyanın Patriarxı Kirill çıxış edib.

Patriarx Kirill Rus Pravoslav Kilsəsinin birinci dərəcəli "Müqəddəs Sera?m Sarovski" ordenini Şeyxülislam Allahşükür Paşazadəyə təqdim edib.

İkigünlük Sammitdə "Multikulturalizm, tolerantlıq və dinlərarası həmrəyliyin təşviqində Azərbaycan dövlətinin nümunəvi rolu", "Şeyxülislam Allahşükür Paşazadənin dini rəhbər və ictimai xadim kimi sivilizasiyalararası və dinlərarası əməkdaşlığın inkişafına töhfəsi", "Dini liderlər terrorizm, təcavüzkarlıq, ksenofobiya, islamofobiya, antisemitizm və xristianofobiya əleyhinə", "Qadın və uşaq haqlarının qorunması, gənclərin maarifləndirilməsində dini liderlərin, dövlət, elm və ictimai xadimlərin birgə fəaliyyətinin əhəmiyyəti" mövzuları ətrafında müzakirələr aparılacaq.

Sammitin yekunlarına dair Bakı Bəyannaməsi qəbul olunacaq.

**Məlum olduğu kimi, Rusiyanın Armavir şəhərində Qaregin Njdenin xatirə lövhəsi qara boya ilə rənglənib. Armavir Şəhər Dumasının deputatı Aleksey Vinoqradov lövhəni şəxsən özü boyayıb.**

# Ermənistanın "faşist qəhrəmanlarına" qarşı Azərbaycan Prezidentinin başlatdığı mübarizə konkret nəticə verdi - Armavir demarşı...



Bu arada Ermənistanın Rusiyadakı Səfirliyi Armavir Şəhər Dumasının deputatı Aleksey Vinoqradovun erməni xadim Qaregin Njdenin xatirə lövhəsinin üzərini qara boya ilə boyaması ilə əlaqədar bəyanat yayıb. Bəyanatda səfirlik bunu vandalizm aktı kimi dəyərləndirib: "Səfirlik Armavirdə baş verən hadisə ilə bağlı dərin qəzəbini bildirir. Armavir Şəhər Dumasının (Krasnodar əyaləti) deputatı Vinoqradovun əməllərini Erməni Apostol Kilsəsi ərazisində vandalizm aktı kimi qiymətləndirirk".

Səfirlik hesab edir ki, baş verənlər millətlərarası gərginliyə gətirib çıxara bilər.

Rusiya mətbuatı yazır ki, lövhə 2012-ci ildə erməni kilsəsi ərazisində quraşdırılıb. Bir müddət əvvəl əyalət hakimiyyəti və yerli hakimiyyət, habelə "Rusiya Ermənileri İttifaqı"nın yerli şöbəsinin nümayəndələri Njdenin xatirə lövhəsini sökməyə söz veriblər. Ancaq buna baxmayaraq, lövhə sökülməyib, Vinoqradov onu qaraya boyayaraq, "məsələni özü həll edib". Hələ 2017-ci ildə Armavir sakinləri hakimiyyət orqanları, hüquq-mühafizə orqanlarına kollektiv bəyanat göndərərək, Qaregin Njde lövhəsini sökməyi tələb ediblər.

Qeyd edək ki, buna qədər Azərbaycan dəfələrlə Ermənistanı faşizm əlbirlərinin qəhrəmanlaşdırılmasında haqlı olaraq ittiham edib. Prezident İlham Əliyev Valdayda və Aşqabadda keçirilən tədbirlərdə Ermənistan hakimiyyəti tərəfindən faşistlərlə əlbir olanların xatirəsinin əbədiləşdirilməsinin yolverilməz olduğunu xüsusi olaraq vurğuladı. Görünən odur ki, ölkə başçısının qətiyyətli mövqe ortaya qoymasından sonra Azərbaycanın bu yöndə apardığı işlər artıq konkret nəticələr verir. Armavirdə yaşananlar məhz bunun nəticəsidir. Çox güman ki, bu proses davamlı olacaq.

## *Elşən Manafov: "Prezident İlham Əliyevin Aşqabaddakı çıxışı bu yöndə ciddi nəticələr verir"*

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, Armavirdə baş verənlər onu göstərir ki, Prezident İlham Əliyevin Aşqabaddakı çıxışı bu yöndə ciddi nəticələr verir: "MDB dövlət başçılarının Aşqabadda keçirilən toplantısında Prezident İlham Əliyev Ermənistanda faşistlərə xidmət edənlərin abidəsinin əbədiləşdirilməsini kəskin tənqid etdi. Bəyan etdi ki, özünü demokratik hakimiyyət kimi qələmə verən Paşinyan iqtidarı özündən əvvəlki dövrdə ölkədə ucaldılan abidəni sökməyib. Bununla ölkə başçısı Ermənistan hakimiyyətinin iç üzünü ortaya qoydu. Ona görə də Armavirdə yaşanan hadisəni Azərbaycan Prezidentinin məlum çıxışı kontekstində qiymətləndirmək lazımdır. Ölkə başçısı Ermənistanın indiki iqtidarını Njdeyə abidə qoyulması məsələsində sərgilədiyi mövqeyə görə ciddi tənqid etdi. Bildirdi ki, Ermənistan hakimiyyəti özünü demokratik hakimiyyət kimi qələmə versə də, Sarkisyan dönəmində faşistlərlə əməkdaşlıq etmiş erməni generalının şərəfinə ucaldılan abidəyə görə bu və ya digər dərəcədə məsuliyyət daşıyır. Prezidentin bu çıxışı MDB dövlətlərində çox ciddi ajiotaj doğurdu. Görünən odur ki, bu çıxış Armavir əhalisinə ciddi sirayət edib. Bunun nəticəsidir ki, artıq Rusiyada Njde ilə bağlı etirazlar artır. Yaşananlar Rusiya-Ermənistan münasibətlərində özünü göstərəcək. Hesab edirəm ki, Rusiyanın digər şəhərlərində də bənzər etirazların baş verməsi qaçılmazdır".

*"Bunun nəticəsidir ki, artıq Rusiyada Njde ilə bağlı etirazlar artır"*

***Vidadi ORDAHALLI***

---

**Siyasi mühacir adı altında Almaniyaya sığınmış bir qrup müsavatçı azərbaycanlının aşkar kriminal əməllərə görə bu ölkənin polisi tərəfindən həbs edilməsi ilk növbədə dövlətimizin və xalqımızın dünyadakı müsbət imicinə ləkə salan rüsvayçılıq kimi dəyərləndirilməlidir.**

# Aydın Quliyev: "Radikal müxalifət Avropaya tək uydurma siyasi mühacirlər yox, həm də cinayət şəbəkəsi ixrac edirmiş"



"Trend"in məlumatına görə, bunu agentliyə "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.

Onun sözlərinə görə, indiyədək adları Azərbaycan dövlətçiliyinə qarşı qərəzli qarayaxmalarda hallanan bu şəxslərin ifşa olunmuş əməlləri sübut edir ki, onların indiyədək insan hüquqları və demokratiya barədə gurultulu bəyanatları boğazdan yuxarı hay-küy olmaqla bərabər, həm də bir sıra cinayət əməllərini ört-basdır etmək üsulundan başqa bir şey deyilmiş:

"Vaxtilə Azərbaycanda Müsavat Partiyasının fəal üzvləri olmuş və sonradan uydurma siyasi motivlər düzüb-qoşaraq ölkədən mühacirət etmiş bu şəxslər Almaniyada da saxta və qurama işlərdən geri çəkilməmiş, öz "qabiliyyətlərini" hətta saxta miqrant ticarəti şəbəkəsinin yaradılmasına qədər davam etdirmişlər. Bir müddət əvvəl Almaniya polisinin bu ölkədə cinayətkar erməni mafiyasının üzvlərini ifşa etməsinin ardınca müsavatçıların qanunsuz miqrant ticarəti ilə məşğul olmalarının üzə çıxması çox ağrılı və millətimiz üçün təhqiramiz faktdır. İnsan haqlarının müdafiəsi kimi hay-küyçülüyün altında cinayət əməlləri ilə məşğul olan müsavatçılar dünya erməni lobbisi və diasporu ilə çox uğurlu mübarizə apardığımız dövrdə dövlətimizin imic və mənafelərinə arxadan zərbə vurdular. Bu cinayəktar qrupa hər zaman siyasi və mənəvi himayə göstərərək onları həm də indiki Azərbaycan reallıqları əleyhinə mübarizəyə yönəldən Müsavat Partiyası və onun rəhbərliyi də olayda konkret məsuliyyət daşıyır".

A.Quliyev vurğulayıb ki, Azərbaycanda insan haqları adı altında sabitliyi pozmağa davamlı cəhdlər göstərən Müsavat Partiyası öz üzvlərinin xaricdə yaratdığı miqrant alveri şəbəkəsinin cinayət əməllərinə görə öz məsuliyyətini dərk etməli və Azərbaycan xalqından üzr istəməlidir:

"Hətta saxta viza kağızları çap edən maşınların quraşdırılması, saysız pasportların toplanması bu cinayətkar şəbəkənin uzaqgedən fəaliyyət planlarına malik olduqlarından xəbər verir. Mühacir müsavatçıların cinayətkar dəstə üzvləri Azərbaycanla Almaniyanın inkişaf edən əməkdaşlıq əlaqələrini də bir sıra suallar qarşısında qoydu. İfşa olunmuş mühacirlərin hər birinin ad-soyadı Azərbaycan xalqının yaddaşında populyar olaraq qalmış fəal Müsavat üzvləridir. İstisna deyil ki, Almaniyada qurulmuş bu qanunsuz miqrant ticarəti biznesinin təşkilat və maliyyə uzantıları Azərbaycanın içinə, ilk növbədə Müsavat Partiyasına qədər uzanıb gəlir. Müsavatçılar öz qanunsuz əməlləri ilə həm də əbədi və əzəli düşmənlərimiz olan erməni-daşnak mafiyasının əlinə kəskin bir silah verdilər. Cinayətkarların harada və hansı millətdən, partiyadan olmasından asılı olmayaraq öz cəzalarına çatacaqları şəksizdir. Ancaq indi Azərbaycan xalqı üçün ən maraqlı məqam odur ki, Müsavat rəhbərliyi öz üzvlərinin qanunsuz əməllərinə görə xalqımız qarşısında ağır məsuliyyət daşıdığını necə göstərəcək və nümayiş etdirəcək?! Çünki fakt sübut etdi ku, Müsavat Partiyası, ümumiyyətlə radikal müxalifət Avropaya tək uydurma siyasi mühacirlər yox, həm də cinayət şəbəkəsi ixrac edirmiş...".

Qeyd edək ki, Almaniyanın hüquq-mühafizə orqanları Azərbaycanın müxalifət partiyasının keçmiş üzvlərini saxlayıb. Cinayətkar şəbəkəyə daxil olan 7 nəfər həbs edilib. Onlar barəsində yerli federal məhkəmələr tərəfindən 6 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

**Aydın Quliyev Yunus Oğuzun qayınatası İsa Qafarovun vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!**

# Azərbaycan hərbi büdcəni 20 faiz artırdı, Ermənistan dondurdu - Paşinyanın öz xalqı başında iki oyunu...

**Azərbaycan müdafiə xərclərini davamlı şəkildə artırır. Belə vəziyyət isə, təbii ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli zamanı Azərbaycanın üstünlüyünün daha böyük fərqlə artmasına xidmət edir. 2020-ci ilin dövlət büdcəsində hərbiyə ayrılan xərclər 20 faiz artırılacaq.**



## *Ramil Hüseynov: "Paşinyana rəqib olan müxalifət bundan ona qarşı güclü siyasi təbliğat vasitəsi kimi istifadə edəcək"*

Belə ki, müdafiə xərclərinin büdcəsi 20.9% artırılmaqla, 2.267 milyard dollara çatıb. Bunun 945 milyon dolları silah alışı və hərbi sənaye sərmayəsi üçün nəzərdə tutulub. Erməni mətbuatı bütün bunları böyük narahatlıqla izləyir. Ancaq Ermənistan hökuməti 2020-ci ildə dövlət büdcəsini 14 faiz artırmağı planlaşdırdığı halda, hərbi xərclərin artımını dondurub.

Ermənistanda bir çoxunu narahat edən məsələ budur ki, gələn il ölkə hərb sahəsinə hökumətin vəd etdiyi həcmdə də vəsait ayıra bilməyəcək. Buna əsas səbəb hərb üçün nəzərdə tutulan xərclərin pisləşən sosial sahəyə yönəldilməsi ehtimalının artmasıdır. Nikol Paşinyan hakimiyyəti Ermənistanın rifah səviyyəsinin artırılması ilə bağlı bir sıra vədlər versə də, bu özünü doğrultmayıb. Bu isə sosial narazılığı artırır və Paşinyan belə vəziyyəti özü üçün ciddi təhdid sayır. Ona görə də Paşinyan hakimiyyətini qorumaq üçün hərbi xərcləri azaldaraq bunu sosial sferaya yönəltməyi düşünür. Bu isə o deməkdir ki, gələn il ölkənin hərbi xərcləri artmaq əvəzinə azalacaq.

Görünən odur ki, Ermənistanın hazırkı iqtisadi imkanları gələn il hərbi xərcləri artırmaq imkanında deyil. Başqa bir tərəfdən, Paşinyan hakimiyyəti hərbi üçün nəzərdə tutulan xərcləri sosial sahəyə yönəltməklə, bu sahədə getdikcə artan narazılığı önləmək istəyir. Məhz bu iki amillə əlaqədar gələn il üçün nəzərdə tutulan hərbi xərclər dondurulub.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, bütün bunlar Paşinyan hakimiyyətinin ziyanına işləyəcək: "Məsələ ondadır ki, Ermənistan Azərbaycanla müharibə vəziyyətindədir. Heç kəs 100 faiz zəmanət verə bilməz ki, gələn il müharibə baş verməyəcək. 1994-cü ilin mayından üzübəri atəşkəsin qorunması o demək deyil ki, genişmiqyaslı hərbi əməliyyatların başvermə risqi aşağıdır. Əksinə, hesab edirəm ki, danışıqların uzun illər nəticə verməməsi müharibə ehtimalını artırır. Təbii ki, Ermənistan Azərbaycanla silahlanma məsələsində yarışa bilməyəcək. Çünki bu ölkə dilənçi vəziyyətindədir. Ermənistanı indiyə qədər qoruyan başlıca amil bu ölkənin Rusiyanın himayəsi altında olmasıdır. Ancaq Rusiyanın Paşinyanla münasibətlərində yaşananlar bunun hər an dayana biləcəyi anlamına gəlir. Digər tərəfdən, Ermənistan hakimiyyəti gələn ilin dövlət büdcəsində müəyyən artımlara getsə də, hərbiyə ayrılan xərcləri sosial sahəyə yönəltsə də, bu, nəyisə dəyişə bilməyəcək. Yəni Paşinyanın bununla özünü sığortalaya bilməsi mümkün deyil. Əksinə, bütün bunlar onun əleyhinə işləyəcək. Birincisi, Paşinyana rəqib olan müxalifət bundan ona qarşı güclü siyasi təbliğat vasitəsi kimi istifadə edəcək. İkincisi, Ermənistanda o qədər sosial problem var ki, bu kimi qərarlar belə, bu yöndə tələbləri qarşılamaq iqtidarında deyil. Ona görə də məsələyə hansı tərəfdən yanaşsaq, bütün bunlar Paşinyanın ziyanına işləyəcək".

*"Ermənistanda o qədər sosial problem var ki, bu kimi qərarlar belə, bu yöndə tələbləri qarşılamaq iqtidarında deyil"*

***Vidadi ORDAHALLI***

# Almaniyada cinayət ittihamı ilə tutulan mühacir müsavatçıların mühacirətdən əvvəlki həyatları...

**Almaniyanın 6 əyalətində 38-dən çox ev və iş yerlərinə olan polis müdaxiləsi zamanı Almaniyada qanunsuz miqrasiya işləri ("miqrant alveri") ilə məşğul olmaqda şübhəli bilinən cinayətkar dəstənin saxlanan üzvləri barəsində yerli federal məhkəmələr tərəfindən 6 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.**

Barələrində həbs-qətimkan tədbiri seçilən şəxslər aşağıdakılardır:

1. Elçin Əkbərov - Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 9 və 14 saylı məntəqə tipli cəzaçəkmə müəssisələrinin sabiq rəisi, 2. İlham Həsən - Müsavat Partiyası Avropa Koordinasiya Mərkəzinin (Müsavat AKM) sədri, 3. Mehdi Xəlilbəyli - Müsavat Partiyasının üzvü, Müsavat AKM sədrinin müavini, 4. Abdin Cavadov - Müsavat AKM-in üzvü, 5. Əlövsət Əliyev - "Leqat" inteqrasiya mərkəzinin rəhbəri, sabiq polis rəisi, 6. Rəşad Məmmədov, 7. Elşən Abdullayev - Müsavat Partiyasının üzvü.

İlk baxışdan adi gələn bu adlar arasında, əslində, məşhurluğu ilə seçilənlər də az deyil. "Bakı-Xəbər" olaraq siyahıda olanlarla bağlı araşdırmalar apardıq.

Siyahda adı keçən məşhur şəxslərdən biri Mehdi Xəlilbəylidir. Söhbət Müsavat Partiyasının fəallarından olmuş Mehdi Xəlilbəylidən gedir. Əslən Şərur rayonunun Siyaqut kəndindən olan Mehdi Xəlilbəyli 2003-cü ilin 15-16 oktyabrında Müsavat Partiyası qərargahı önündə baş verən hadisəyə görə Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən axtarışa verilib. Onun telejurnalist Sahil Kərimlinin döyülməsi faktına görə axtarışa verildiyi bildirilir. Elə həmin vaxtdan Mehdi Xəlilbəyli ölkəni gizli yollarla tərk edərək, Almaniyada yaşayır. Orada yaşadığı müddət ərzində də fəal Müsavatçı kimi özünü aparıb, partiyanın Avropada təşkil etdiyi tədbirlərin sponsoru və təşkilatçısı olub.

Digər maraqlı persona isə Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 9 və 14 saylı məntəqə tipli cəzaçəkmə müəssisələrinin sabiq rəisi olmuş Elçin Əkbərovdur. Apardığımız araşdırma zamanı müəyyən etdik ki, E.Əkbərovun Almaniyada yerləşməsinə də elə M.Xəlilbəyli kömək edib. M.Xəlilbəyli ilə hazırda siyasi sığınacaq alan E.Əkbərovun arasında yaxın dostluq münasibəti olub. Onların hər ikisi həm də həmyerlidirlər, əslən Şərur rayonundandırlar.

Maraqlıdır ki, E.Əkbərovun Azərbaycanda işləri pis getməyib. Onun mənsub olduğu ailənin hazırkı hakimiyyətlə heç bir kəsişən marağı da olmayıb. Əslən Şərur rayonunun Yuxarı Daşarx kəndindən olan Elçinin anası Nigar xanım fəal YAP-çılardan sayılır. Onun Mahir Əkbərov adlı qardaşı isə polis orqanlarında çalışıb. M.Əkbərovun həyat yoldaşı dələduzluqda təqsirli bilinib həbs edilləndən sonra onun özünü də polis orqanlarından xaric ediblər. Bizə məlumat verən mənbənin sözlərinə görə, paytaxtda böyük biznes obyektləri olan E.Əkbərovun mühacirətə getməsinin kökündə qətiyyən siyasi maraqlar durmur: "Hakimiyyət tərəfindən sıxışdırılan adamın belə var-dövləti olar? Axtarışda olan zaman M.Xəlilbəylinin ölkədən çıxarılmasında o vaxt Elçinin böyük rolu olub. Onların münasibətləri sonra da davam edirdi. Əsasən də bahalı avtomobillərin Almaniyadan ölkəyə gətirilib satılması sahəsində müştərək biznesləri olub. Elçin Əkbərovun guya general Mədət Quliyevlə ziddiyyətinin olması səbəbindən ölkəni tərk etməsi inandırıcı görünmür. Elçinin Almaniyada məskunlaşmasına da məhz Mehdi kömək edib".




Mənbə bildirir ki, E.Əkbərovun hakimiyyət daxilində böyük himayədarları da olub. Hətta o səviyyədə ki, sabiq rəis 90-cı illərdə həmin dövrün məşhur "Laləndə" restoranında münaqişə zəmnində öz tabel silahı ilə iki nəfəri güllələyərək ağır yaralasa da, sabiq rəis nəinki məsuliyyətə cəlb edilməyib, hətta həmin hadisədən sonra onun karyerasında yüksəliş baş verib.

Siyahıda adı qeyd olunan müsavatçı Abdullayev Elşən Adil oğlu bloger Orduxan Teymurxanın dostudur. Onlar Azərbaycan hökuməti əleyhinə keçirilən aksiyalarda daim bərabər iştirak ediblər. Hər iki şəxs aşkar surətdə kütləvi iğtişaşlara, hakimiyyət nümayəndələrinin qanuni tələbinə tabe olmamağa çağırışlar ediblər.

"Leqat" İnteqrasiya Mərkəzinin rəhbəri Əlövsət Əliyev Xalq yazıçısı Sabir Rüstəmxanlının qardaşıdır. AXC hakimiyyəti dönəmində Lerik və Lənkəranda polis rəsi olub. Sonra isə DİN Pasport Qeydiyat İdarəsində rəhbər postda çalışıb. Ölkəni bir neçə il əvvəl tərk edib.

Müsavat Partiyası Avropa Koordinasiya Mərkəzinin sədri kimi həbs edilən İlham Həsən isə AXC hakimiyyəti dönəmində Kəlbəcərin icra başçısı olub. Kəlbəcərin işğalından sonra Elçibəy tərəfindən səriştəsiz fəaliyyətinə görə vəzifəsindən azad olunub. 1998-ci ildən xaricdə yaşayır. Müsavatın indiki və əvvəlki rəhbərləri ilə sıx münasibətlərə malikdir.

Rəşad Məmmədov kimi adı qeyd edilən şəxsin isə M.Xəlilbəylinin sürücüsü və yaxın qohumu olduğu bildirilir. Ölkədə heç bir təqibə məruz qalmayıb. Saxta əsaslarla Almaniyaya sığınıb.

***Məhəmmədəli QƏRİBLİ***

# Almaniyada tutulmuş müsavatçılara dair cinayət araşdırması Müsavat Partiyasınadək uzana bilər - gizli biznes...

**Almaniyada miqrant alveri ilə məşğul olan azərbaycanlılardan ibarət dəstə üzvlərinin saxlanması ölkədə əsl şok effekti yaradıb. Almaniya Federal Daxili İşlər Nazirliyinin yaydığı məlumat görə, Federal Kriminal Polis ölkənin Nidersaksen, Şlezviq-Holşteyn, Bremen, Şimali Reyn Vestfaliya, Bradenburq və Reynland-Pfalts əyalətlərində 38-dən çox ev və iş yerində əməliyyat keçirib.**

Obyektlərdə aparılan yoxlamalar zamanı çoxlu sayda xarici ölkə vətəndaşına aid pasportlar, viza çap edən xüsusi aparatlar, nağd pul və silah tapılaraq götürülüb.

Şimali Reyn Vestfaliya əyalətinin Daxili İşlər Nazirliyindən verilən məlumatda isə deyilir ki, bu əyalətdə 180-ə yaxın polisin iştirakı ilə ev və iş yerlərinə təşkil edilən axtarışlar nəticəsində miqrant alveri ilə məşğul olan şəbəkənin bağlantıları müəyyən olunub. Kriminal polisin Düsseldorf, Köln, Frankfurt və Koblenz şəhərlərində keçirdikləri əməliyyatlar nəticəsində iki Azərbaycan vətəndaşı saxlanıb. Polis onların ilkin ifadələri əsasında azərbaycanlılardan ibarət dəstənin izinə düşüb.

Saxlanan Azərbaycan vətəndaşlarının evlərinə baxış zamanı çoxlu sayda Azərbaycan Respublikasına aid milli pasport, müxtəlif siyasi partiyalara aid üzvlük vəsiqələri, arayışlar, möhür və ştamplar aşkar olunaraq götürülüb. Artıq həbs olunanların adları da bəlli olub. Onlar Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 9 və 14 saylı məntəqə tipli cəzaçəkmə müəssisələrinin sabiq rəisi Elçin Əkbərov, Müsavat Partiyası Avropa Koordinasiya Mərkəzinin (Müsavat AKM) sədri, Kəlbəcər rayonunun sabiq icra başçısı İlham Həsən, Müsavat Partiyasının üzvü, Müsavat AKM sədrinin müavini Mehdi Xəlilbəyli, Müsavat AKM-in üzvü Abdin Cavadov, sabiq deputat Sabir Rüstəmxanlının qardaşı, "Leqat" inteqrasiya mərkəzinin rəhbəri, sabiq polis rəisi Əlövsət Əliyev, Mehdi Xəlilbəylinin sürücüsü Rəşad Məmmədov, Müsavat Partiyasının üzvü Elşən Abdullayevdir. M.Xəlilbəyli və siyahıda adları keçən şəxslərin bir çoxu Müsavat Partiyasının ən fəal üzvləri sayılır.

Xatırladaq ki, cinayətkar dəstənin saxlanan üzvləri barəsində yerli federal məhkəmələr tərəfindən 6 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Məlum olub ki, həbs edilənlər Almaniyada "miqrant alveri" ilə məşğul olmaqda, o cümlədən, 3-10 min avroarası ödəmə qarşılığında ən azı 20 nəfəri qaçaq yollarla Almaniyaya aparmaqda şübhəli bilinirlər.

Jurnalist Yafəz Əkrəmoğlu Almaniyanın hüquq-mühafizə orqanları tərəfindən Azərbaycanın müxalifət partiyasının keçmiş üzvlərinin saxlanmasına münasibət bildirərkən deyib ki, bu xəbəri alandan sonra araşdırmalara başlayıb və bir çox sənədli fakt toplayıb.

"Əvvəllər də bildirmişdim ki, Almaniya Federal Polisi Azərbaycandan Almaniyaya




mühacir daşıyan dəstəni ifşa edib və bu işlə bağlı xeyli azərbaycanlının evində və ofisində axtarış edib, bir neçə nəfər həbs olunub".

Həmin faktları qısa şəkildə paylaşan jurnalist qeyd edib: "Evlərdə və ofislərdə axtarış Koblenç Prokurorluğun sanksiyası əsasında həyata keçirilib. Sanksiyada insan alveri ilə bağlı açılmış bir cinayət işində təqsirləndirilən Azərbaycan vətəndaşlarının soyadları göstərilir (ad göstərilmir). Bunlar Xəlilbəyli, Həsən (soyaddır), Cavadov və başqalarıdır. Cinayət işinə əsaslanmış sanksiyadakı məlumatların qısaldılmış forması belədir: Azərbaycan vətəndaşı, təqsirləndirilən şəxs, Xəlilbəyli ən azı 2015-ci ildən bəri pul müqabilində saxta sənədlərlə Azərbaycandan Almaniyaya qaçaq adamlar daşıyıb. Onların indiyə kimi məlum olan sayı 60 nəfərdir. Xəlilbəyli minlərlə avro qarşılığında onlara saxta siyasi mühacir sənədləri də verib. Guya həmin şəxslər siyasi səbəblərdən Azərbaycanda təqib olunurmuşlar.

O, gətirdiyi adamlara özünü Almaniyada sözükeçən biri kimi təqdim edib. Xəlilbəyli qaçaq yolla gətirdiyi adamlara mühacir işi ilə bağlı necə davranmaları ilə bağlı təlimatlar verib. Bundan əlavə, o, qurbanlarının əlindən həqiqi sənədləri alıb, həmin şəxslərin guya Azərbaycanda siyasi səbəbdən izlənmələri ilə bağlı saxta sənədləri təqsirləndirilən şəxs Həsən (soyaddır - İlham Həsən ola bilər) və təqsirləndirilən Cavadovun vasitəsilə əldə edib. İndiyə kimi ən az 50 bu cür iş görülüb və bu yolla 300.000 avrodan çox pul əldə olunub. Təqsirləndirilən şəxs Həsən ən az 7 dəfə dolu paketdə Xəlilbəyliyə saxta sənədlər göndərib. Çoxsaylı azərbaycanlının ev və ofislərində axtarışlara səbəb istintaq dövrü toplanan bu cür məlumatlar olub".

Daha bir azərbaycanlı mühacir Rəfail Priyev Fransada saxlanıb. Sosial şəbəkələrdə yayılan məlumata görə, bir neçə il əvvəl Azərbaycandan Almaniyaya gedərək bu ölkədən sığınacaq istəyən R.Priyevin barəsində Berlin Əyalət Məhkəməsinin qərarı ilə deportasiya qərarı çıxarılıb.

R.Priyev Almaniya Federal Daxili İşlər Nazirliyinin təqdimatı ilə Fransadakı qaçqın düşərgəsində saxlanıb.

Azərbaycan vətəndaşının yaxın günlərdə Almaniyaya deportasiya edilməsi gözlənir.

Müsavat Partiyası üzvlərinin qanunsuz miqrasiya işləri və "siyasi mühacir alveri"nə görə Almaniya Polisi tərəfindən həbs edilməsi sosial şəbəkədə müzakirələrə səbəb olub. Müsavat Partiyası başqanının müavini Səxavət Soltanlının yazdığı status "ReAl"çıları bərk hiddətləndirib. S.Soltanlı "Facebook"da belə yazıb: "Kim olmasından asılı olmayaraq, hansısa qanunsuz işdə adı keçən hər kəs cəzasını almalıdır. Qanunsuz əməllərdə iştirakı sübut olunan heç bir kəs bizimlə bir yerdə ola bilməz!".

Bu statusa "ReAl" Partiyası üzvlərinin yazdığı rəylər qarşılıqlı mübahisəyə səbəb olub. Belə ki, "ReAl" partiyasının üzvü Dağlar Mustafayev onun paylaşımı barədə yazıb: "O zaman Müsavat rəhbərliyindən başlayın. Zamanında o da üzə çıxacaq. Necə ki, əvvəl inkar etdikləriniz bu gün üzə çıxır".

S.Soltanlı isə yazıb ki, deyilənlər şər-böhtandır. "ReAl"çı D.Mustafayev onun fikirlərinə "Bu gün bu məsələni inkar edənlər ya sadəlövhdür, ya da işin içindədirlər. Bilə-bilə susurlar" - deyə cavab verib.

Ardınca Müsavat və "ReAl" üzvləri bir-birini "şərəfsiz" və digər sözlərlə təhqir ediblər.

Qeyd edək ki, Müsavat Partiyasının adının saxta miqrant işində hallanması ilk hadisə deyil. Artıq bir neçə ildir ölkənin daxilində aparılan müzakirələrdə bu mövzulara toxunulur. Hətta Müsavatın öz funksionerləri arasında gedən polemikalarda belə mühacir alveri ilə bağlı ittihamlar bir-birinin ünvanına səslənib. Təbii ki, belə bir əməliyyat Azərbaycanda keçirilsəydi, radikal dairələr bunu siyasi təqib kimi qələmə verəcəydi. Hazırda isə onların cinayətini məhz bəyənərək sığındıqları ölkənin polisi ifşa edir. Çox təəssüflər olsun ki, Müsavat Partiyası hələ də bu qalmaqalla bağlı açıqlama vermək istəmir. Bu yöndə bizim də cəhdlərimiz alınmadı. Aydındır ki, konkret faktlar qarşısında deməyə söz tapa bilmirlər. Almaniyada başlanan bu irimiqyası əməliyyatın istintaqının bir ucu da Azərbaycandakı Müsavat Partiyasının rəhbərliyinə qədər uzana bilərmi?

Müsavat Partiyasının fəal üzvlərindən olan, tez-tez partiyanın saxta mühacir alverində əlinin olduğuna dair ittihamlar irəli sürən, sonra isə bu mövqeyinə görə Müsavatdan uzaqlaşdırılan hüquqşünas Taleh Xasməmmədov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, məhz bu mövzuda Almaniya Polisi Azərbaycanın hüquq-mühafizə orqanları ilə birlikdə iş apara bilər: "Yəqin ki, şübhəli şəxslər barəsində Azərbaycan hökumətinə ətraflı məlumatlar veriləcək. Deməli, bir müddət əvvəl ictimaiyyətin diqqətinə çatdırmış olduğumuz "mühacir biznesi" və Almaniya Federal Miqrasiya İdarəsi ilə Almaniya Polisinin apardığı araşdırmalar son nəticədə öz təsdiqini tapdı. Həmin vaxt biz ehtimallar üzərində dayanaraq, qanundan irəli keçmək istəmirdik. Yəni birbaşa ittiham səsləndirmək təqsirsizlik prezumpsiyasının pozulması hesab oluna bilərdi. Amma indi şərait dəyişib. Məhz Almaniya Polisinin keçirdiyi əməliyyat və axtarış tədbirləri nəticəsində 60 nəfər şübhəli şəxs saxlanıb, bu şəbəkənin də bağlantısı Azərbaycanda fəaliyyət göstərən bir neçə siyasi təşkilatla bağlıdır. Azərbaycan hakimiyyəti baş vermiş bu hadisənin hüquq-mühafizə orqanları səviyyəsində araşdırılmasını təmin etməlidir.

Çox böyük ehtimalla müxalif düşərgədə bu cür qara işlərlə məşğul olanların Azərbaycan hakimiyyətinin bəzi dairələrində də əlbirləri mövcuddur. Bütün bu faktların tam aşkarlanması üçün obyektiv araşdırma təmin olunmalıdır".

Qeyd edək ki, baş verən bu biabırçı hadisəyə ən sərt reaksiya verən elə tanınmış müsavatçılardır. Maraqlıdır ki, onların hər biri işin bu yerə çatmasında Müsavatın rəhbərliyini qınayır. Keçmiş Divan üzvü Alya Yaqublu baş vermiş hadisəyə belə münasibət bildirdi: "Bizi bu adamlara görə düşmən elan elədilər. Onlara qarşı çıxdığımız üçün. Şəxsən mənə buna görə "sizin maraqlarınız hakimiyyətin maraqları ilə üst-üstə düşür" dedilər. Halbuki, böyük Rəsulzadə hələ 100 il qabaq xəbərdarlıq etmişdi, "şübhəsiz, həqiqət bir gün parlayacaqdır" demişdi. Tərifləyənlər və dəstəkləyənlər, utanın. Susanlar, siz də".

Partiyanın son qurultayında başqanlığa namizədliyi irəli sürülən Yadigar Sadıqlının isə məsələyə münasibəti daha kəskin olub. Onun öz sosial şəbəkə hesabında paylaşdığı fikirləri təqdim edirik: "Son iki ildə azsaylı həmfikirlərimlə birlikdə Müsavat Partiyası daxilində apardığım mübarizənin nə qədər ağır olduğunu təsəvvür edə bilməzsiniz. Hakimiyyətə qarşı 19 illik mübarizəmlə bağlı çəkdiyim əziyyət bu qədər ağır olmayıb. Bu iki ildə baş verənlər mənəvi cəhətdən daha ağır idi. İllərlə çiyin-çiyinə mübarizə apardığın insanların eyhamına, şərinə, böhtanına, təhqirinə dözmək çox ağır idi. Hökumətdən mən şəxsən bu qədər böhtan və təhqir eşitməmişəm. Halbuki, özümüz üçün heç nə istəmirdik. Bu gün baş verənləri, sadəcə, ehtimal edirdik və qarşısını almağa çalışırdıq. Bütün istədiyimiz Müsavat üçün idi, bütün təlaşımız Müsavatın adına, nüfuzuna görə idi. Hər nəyə əlimizi yeləyib sakit dura bilərdik. Amma məzarları Fransadan Sibirə qədər bütün Avrasiya materikinə səpələnən o əski müsavatçıların ruhu qarşısında duyduğumuz məsuliyyət imkan vermirdi. İçimi dağıdırdı o məsuliyyət. Çox təəssüf ki, bacarmadım".

*Məhəmmədəli QƏRİBLİ*

**Məlum olduğu kimi, respublikaçı senator Lindsi Qrem çərşənbə günü Senatın Osmanlı İmperiyasında bir əsrdən əvvəl "erməni soyqırımı"nı tanıyan qətnaməni qəbul etməsinin əleyhinə olduğunu bildirib.**

# Erməni lobbisinin ABŞ-da saxta "genosid" "marafonu" Senat komitəsində dayandırıldı...



## ***Məhəmməd Əsədullazadə:*** *"Məhz Türkiyə-Azərbaycan diplomatik işi erməni lobbisinin bu yöndə fəaliyyətinin qarşısını almış oldu"*

Belə ki, senator Qrem qətnamənin qəbulunu bloklamaq hüququndan istifadə edib: "Mən Ərdoğan və Trampla görüşdüm və Türkiyə ilə Suriyada qarşılaşdığımız problemlərdən danışdıq. Ümid edirəm ki, Türkiyə ilə Ermənistan aralarındakı sözügedən problemi birlikdə həll edər".

Trampın yaxın müttəfiqi hesab olunan Qrem senatorlara xitabən "tarixi yenidən yazmağın lazımsız olduğunu" bildirib.

Qeyd edək ki, "erməni soyqırımı" qətnaməsi Xarici işlər komitəsində böyük demokrat Robert Menendez tərəfindən təklif edilmişdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çərşənbə günü Vaşinqtona səfəri zamanı Nümayəndələr Palatasının Osmanlı İmperiyasında "erməni soyqırımı"nın tanınmasının Türkiyə-Amerika münasibətlərinə kölgə saldığını diqqətə çatdırmışdı.

Xatırladaq ki, oktyabrın 30-da Konqresin Nümayəndələr Palatası "erməni soyqırımı"nın tanınması barədə qətnamə qəbul edib. Həmin qətnamənin Senatda səsverməyə qoyulması gözlənilirdi. Ancaq göründüyü kimi, bunun qarşısı alındı və erməni lobbisi arzusunu reallaşdıra bilmədi.

Ümumilikdə, Senatın qondarma "soyqırım"a qarşı belə mövqe sərgiləməsində Türkiyə və Azərbaycanın birgə diplomatik səyləri nə kimi rol oynayıb?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, iki ölkənin bu yöndə birgə diplomatik fəaliyyəti öz səmərəsini verdi: "Yeni Senatın belə bir addım atmasında Türkiyə və Azərbaycanın birgə diplomatik səyləri müəyyən rol oynayıb. ABŞ Konqresinin Nümayəndələr Palatsının qondarma "erməni soyqırımı" ilə bağlı qərarı Türkiyə-ABŞ əlaqələrinə zərbə idi. Təbii ki, bu, Azərbaycanla da münasibətlərə mənfi təsir edirdi. Hesab edirəm ki, Ərdoğanın ABŞ səfərində "soyqırım" məsələsinin arxa plana keçməsi Türkiyə diplomatiyasının qələbəsidir. Bununla məlum oldu ki, ABŞ erməni məsələsindən siyasi təzyiq vasitəsi kimi istifadə edir. Məhz Vaşinqton yaxşı bilir ki, tarixdə belə bir hadisə olmayıb. Bədnam qətnaməni Senatda kənara qoymaqla bunu bir daha sübut etdi. Azərbaycanın da müəyyən diplomatik səyləri nəticəsində qondarma "soyqırım" qətnaməsi ABŞ-da əhəmiyyətsiz sənəd hesab edildi. Məhz Türkiyə-Azərbaycan diplomatik işi erməni lobbisinin bu yöndə fəaliyyətinin qarşısını almış oldu. Bundan sonra Azərbaycan-Türkiyə lobbi qruplarının birgə fəaliyyəti labüddür. Hər iki ölkə bu kimi məsələlərdə koordinasiyalı fəaliyyət göstərməlidir. Azərbaycan və Türkiyə tandemi daim müasir siyasi çağırışlarda birgə fəaliyyət göstərməlidir. Qeyd edim ki, Ərdoğanın ABŞ səfəri fonunda qondarma "soyqırım" məsələsinin nə qədər əhəmiyyətsiz olduğu görsəndi".

> *"Ərdoğanın ABŞ səfərində "soyqırım" məsələsinin arxa plana keçməsi Türkiyə diplomatiyasının qələbəsidir"*

***Vidadi ORDAHALLI***

---

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ağ Evdə amerikalı həmkarı Donald Trampla birlikdə keçirdiyi mətbuat konfransından sonra uzunmüddətli müttəfiqlik münasibətləri olan bu ölkələrin gələcək münasibətləri haqda nikbin proqnozlar verməyə başlayıblar.**

# Ərdoğanla Trampın "böyük razılaşması" - 67 illik hərbi müttəfiqlik xilas ediləcək, ya...



## ***Zamin Axundov:*** *"Ankara da Trampın müəyyən sıxıntılarını anlamağa başlayıb, amma ondan da gözləntiləri var"*

Ərdoğan bildirib ki, dərin müttəfiqlik ittifaqımıza uyğun olaraq, münasibətlərimizdə yeni bir səhifə açmaqda qərarlıyıq: "Tramp və mən milli təhlükəsizliyimizi təhdid edən terror təşkilatları ilə mübarizə mövzusunda qarşılıqlı iradəmizi təsdiq etdik. İŞİD-lə ortaq mübarizəmizin davam etdirilməsinin vacibliyini vurğuladıq. Hazırda ölkəmizdə 2 min 200-ə yaxın İŞİD-çi var".

Türkiyənin 9 oktyabrda başlatdığı "Barış pınarı" hərəkatının terrorla mübarizədə yeni və əhəmiyyətli bir addım olduğunu vurğulayan Ərdoğan əlavə edib ki, Ankara bu əməliyyatla PKK / YPG-nin Suriyadakı separatçı gündəminə ağır zərbə vurub.

Prezident Ərdoğan terror təşkilatı PKK / YPG-nin türk əsgərlərini və mülki şəxsləri hədəf alan təxribat hücumları təşkil etdiyinə diqqət çəkib. Onun sözlərinə görə, Türkiyə İŞİD-lə üzüzə mübarizə aparan, şəhidlər verən tək NATO müttəfiqidir: "Bu günə qədər 7 min 680 əcnəbi terrorçunu ölkələrinə geri göndərdik . İŞİD-lə əlaqəli ola biləcək təxminən 77 min adamın ölkəmizə girişinə qadağa qoyduq. Hazırda həbsxanalarımızda 40 fərqli ölkə vətəndaşı, 1216 İŞİD-çi var. PKK / YPG-nin əlindəki düşərgələrdən qaçaraq Türkiyənin nəzarətindəki bölgəyə keçənlərin aralarında qadınların və uşaqların da olduğu 287 insan var".

Ərdoğan görüşdə FETÖ ilə bağlı məsələnin də müzakirə edildiyini, Ankaranın bu terror təşkilatının ABŞ-da mövcudluğuna son qoyulması tələbini bir daha səsləndirdiyini vurğulayıb. Türkiyə lideri Tramp ilə ən qısa müddətdə 100 milyard dollarlıq ticarət dövriyyəsi ilə bağlı hədəfə necə çata biləcəklərinə dair fikir mübadiləsi apardıqlarını söyləyib. Həmçinin, müdafiə sənayesindəki münasibətlər gündəmdə olub.

"S-400 sistemi və F-35 proqramı başda olmaqla bu sahədəki digər məsələləri müzakirə etdik və qarşılaşdığımız problemlərin öhdəsindən ancaq dialoqla gələ biləcəyimizi vurğuladıq".

Bundan əlavə, Ərdoğan kürdlərlə bağlı da məsələyə toxunub: "Kürdlərlə heç bir problemimiz yoxdur. Problemimiz terror təşkilatları ilə əlaqədardır. Kürdlərin içindən çıxan terrorçular. Bunlar kimlərdir? PKK-nın uzantısı olan YPG / PYD.

Şimali İraqdakı kürd qardaşlarımızla yaxşı münasibətlərimiz olduğu kimi, Suriyanın şimalındakı kürd qardaşlarımızla da problemimiz yoxdur. Əsəd Suriyanın şimalındakı kürdləri qəbul etmədikdə, ona demişdim: "Səhv edirsən, pasportlarını ver". Bu mövqeyim var. Türkiyə parlamentində kürd millət vəkilləri də fəaliyyət göstərirlər. Bizim kürdlərlə problemimiz yoxdur. Problemimiz terrorçulardır. Bizim mübarizəmiz, dediyim kimi, yalnız terrorçularladır. Çünki terrorçunun irqi, milləti, dini, vətəni yoxdur. Terrorçu terrorçudur. Mübarizə aparmasan, sabah əvəzini çox ağır ödəməli olacaqsan".

Tramp da Türkiyə lideri ilə görüşdən razı qaldığını ifadə edib. İki ölkə başçısının son Vaşinqton görüşü iki ölkə arasındakı gərginləşən münasibətləri normal məcraya qaytara biləcəkmi?

Politoloq Zamin Axundov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, hər iki lider iqtisadi planda ölkələr arasındakı münasibətlərin davam etdirilməsi ilə bağlı siyasi iradələrinin olduğunu nümayiş etdirdilər: "Xüsusilə Trampda biz bu həvəsi daha çox gördük. Çünki onun xarici siyasətinin prioritetlərini məhz iqtisadi maraqlar təşkil edir. Böyük ehtimalla, ABŞ-Türkiyə münasibətləri iqtisadi aspektdə daha dinamik inkişaf edəcək. Hər iki ölkə başçısının bəyanatlarından da göründü ki, onlar iqtisadiyyatı siyasi münasibətlərdən fərqli götürürlər. Hiss olundu ki, bir çox məsələ ilə bağlı konsensus əldə olunub. Məsələnin başqa bir aspekti də var. ABŞ çoxfunksiyalı bir idarəetmə sisteminə sahibdir. Onların da Prezidentə ciddi təsiri ola bilir. Xüsusilə də xarici siyasətin müəyyənləşməsində belə təzyiqlər özünü daha qabarıq göstərə bilir. Böyük ehtimalla, Tramp onların hamısı ilə razılşacaq. Çünki ortada bir impiçment məsələsi də var. ABŞ tarixində bu az olan prosesdir. Orada cəmi iki dövlət başçısı bu proses nəticəsində vəzifəsindən uzaqlaşdırılıb. Bu baxımdan da Trampdan Türkiyə ilə bağlı inadkar mövqe gözlənilmir. ABŞ-ın həssas bölgələrlə bağlı geostrategiyası əvvəlcədən müəyyən olunur və nadir hallarda dəyişikliyə məruz qalır. Orada da Türkiyə ilə yaxın münasibətlərin qorunub saxlanması var. Güman ki, yaxın münasibətlər hətta xırda konfliktlərin, fikir ayrılıqlarının fonunda davam edəcək. Yaxın Şərqdəki problemlər Trampın hakimiyyəti dövründə yaradılmayıb. Onlar Trampa "miras" kimi ötürülüb. Bu vəziyyət heç Trampa da sərf etmir. Ankara da Trampın müəyyən sıxıntılarını anlamağa başlayıb, amma ondan da gözləntiləri var. Bütün təhlillər göstərir ki, tərəflər bu qızıl ortanı tapa biliblər".

> *"Bütün təhlillər göstərir ki, tərəflər bu qızıl ortanı tapa biliblər"*

***Məhəmmədəli QƏRİBLİ***

**İşğalçı Ermənistanın bu gün faşizm ideyalarına sadiq qalması, onu inkişaf etdirməsi istiqamətində fəaliyyəti Azərbaycan tərəfindən tam şəkildə ifşa edilib. Elə bunun nəticəsidir ki, Ermənistanda, nasist Qaregin Njde də daxil olmaqla, faşist və ya terrorçu ermənilərin adlarının əbədiləşdirilməsi, heykəllərinin ucadılmasına dünya miqyasında təpkilər artır.**

# Rusiyada erməni faşistlərinə qarşı yürüş başladı - səfir Rusiyanı millətlərarası gərginliklə hədələdi...



Xatırladaq ki, bu məsələ MDB ölkələrinin Aşqabaddakı son sammitində Prezident İlham Əliyevin çıxışında xüsusi diqqət mərkəzində yer alıb. Məhz bu çıxışdan sonra erməni tərəfinin faşizm sevgisi yenidən aktuallıq qazanıb və geniş müzakirələrə səbəb olub.

Xatırladaq ki, həmin sammitdə Prezident İlham Əliyev Ermənistanda nasistlərlə birlikdə minlərlə insanın qətlində iştirak etmiş Qaregin Njdeyə İrəvanda abidə qoyulmasını sərt tənqid edib və bunu müharibə qurbanlarının xatirəsinə hörmətsizlik kimi qiymətləndirib. Bütün bunlardan sonra artıq Rusiya ictimaiyyətində də erməni tərəfinin faşizm sevgisinə qarşı sərt tənqidi mövqe müşahidə olunur. Məhz bundan irəli gəlir ki, Armavir Şəhər Dumasının deputatı Aleksey Vinoqradov Qareqin Njdenin xatirə lövhəsini qara rəngə boyayıb. Xatırladaq ki, bundan əvvəl deputat lövhənin sökülləcəyi ilə bağlı vədlər yerinə yetirilməyəcəyi halda məsələni müstəqil həll edəcəyini bildirmişdi.

Qeyd edək ki, hələ 2017-ci ildə Armavir sakinləri Njdenin xatirə lövhəsinin sökülməsi tələbilə yerli hakimiyyət, hüquq-mühafizə orqanlarına və prokurorlara kollektiv şəkildə müraciət ünvanlayıblar, lakin yerli sakinlərin tələbləri hələ də kağız üzərində qalıb. Məsələ cari ildə yenidən gündəmə gəlib. Məlumata görə, noyabrın 11-də Nijdenin xatirə lövhəsinin sökülməsi üçün qoyulan iki həftəlik müddət başa çatıb. Bu müddət ərzində Armavirin regional və yerli rəhbərliyi, həmçinin Rusiya Erməniləri Birliyinin yerli şöbəsinin nümayəndələri erməni SS Legionunun təşkilatçısı Garegin Njdenin xatirə lövhəsini sökəcəyini vəd edib. Aleksey Vinoqradov isə dəfələrlə bildirib ki, lövhənin sökülməsi vədləri yerinə yetirilmədiyi təqdirdə, bu məsələni müstəqil şəkildə həll edəcək. Regional və yerli hakimiyyət orqanları heç bir tədbir görmədiyi üçün deputat Njdenin xatirə lövhəsini qara rəngə boyayıb. O, müstəqil vətəndaş olaraq bu addımı atdığını deyib: "Üçüncü Reyxlə əməkdaşlıq edib çirkli əməllər törədən insanlara abidə qoyulması nasist işğalçılarına qarşı döyüşən xalqa təhqirdir. Garegin Njde qəhrəmandırsa, bəs onun üçün xatirə lövhələri qoyanlar kimlərdir?".

Artıq baş verənlər fonunda Ermənistanın Rusiyadakı səfirliyi Njdenin xatirə lövhəsinin qara rəngə boyanmasından dərin narahatlığını ifadə edib. Səfirliyin yaydığı açıqlamada bu barədə bildirilib: "Armavir Şəhər Dumasının deputatı Aleksey Vinoqradovun erməni Apostol kilsəsi ərazisindəki hərəkətləri bizim tərəfimizdən vandalizm və qanun-qaydalara zidd olan özbaşınalıq kimi qiymətləndirilir. Bu hərəkətlər Ermənistan-Rusiya münasibətlərinin ruhuna uyğun deyil və millətlər arasında gərginliyə səbəb ola bilər". Məlumatda qeyd olunub ki, Armavirdə baş verənlər həm Ermənistanda, həm də Rusiyada yaşayan çoxsaylı ermənilər arasında ciddi narahatlığa səbəb olub. Səfirlik Armavirdəki erməni məbədinin ərazisindəki hadisə ilə bağlı Rusiyanın müvafiq orqanlarına müraciət edəcək. Amma belə görünür ki, ermənilərin bu müraciətləri hansısa nəticə verməyəcək. Çünki Rusiyada Njde ilə bağlı konkret mövqe formalaşması özünü qabarıq göstərir. Rusiyanın hərbi eksperti İqor Korotçenko bildirir ki, Rusiya, Njde də daxil olmaqla, nasistləri qəhrəmanlaşdıran bütün obyektlərdən təmizlənməlidir. Onun sözlərinə görə, faşist cinayətkarların qəhrəmanlaşdırılması qəti şəkildə yolverilməzdir: "General Vlasov milli xəyanətkar hesab olunur, o damğalıdır. Njde də buna bənzər fiqurdur. Vlasov xainlər ordusu hazırlayırdısa, Njde Qırmızı orduya qarşı diversant qrupları, SSRİ-nin dinc vətəndaşlarına qarşı dəmir yolu nəqliyyatında və strateji obyektlərdə təxribatlar hazırlayırdı. Müasir beynəlxalq hüquq normaları baxımından Njde, onun fəaliyyəti beynəlxalq terrorizm kimi təsnif edilir. O, faşistlərlə işbiriliyində olub, onlarla əməkdaşlıq edib". Ekspertin fikrincə, Armavir səlahiyyətlilərinin nədənsə bu probleme göz yumması təəccüblü görünür: "Biz Baltikyanı ölkələrdə nasistliyin təzahürünü qınayırıq, nasist ortaqlarının qəhrəmanlaşdırılmasına qarşı çıxırıq, ancaq Rusiyada oxşar hadisələr baş verir ki, bu faktlar tamamilə yolverilməzdir. Bu lövhə sökülməlidir. Onu quraşdıranlar barəsində "Faşizmin, Hitlerin rəmzlərinin təbliğatı" maddəsi ilə cinayət işi açılmalıdır. Böyük Qələbənin 75 illiyi ərəfəsində Rusiya ərazisi bu cür abidələrdən, xatirə lövhələrindən tamamilə təmizlənməlidir. Bununla əlaqədar olaraq səlahiyyətli şəxslərin, prokurorluğun və İstintaq Komitəsinin dərhal reaksiyası lazımdır. Biz niyə susmalıyıq? Rusiyanın ərazisi və Rusiyanın nüfuzu bizim problemimizdir, Ermənistanın problemi deyil. Buna qarşı cavab tədbirləri olmalı, faşist cinayətkarlarını qəhrəmanlaşdıran insanlar mühakimə edilməlidir".

Maraqlıdır ki, Rusiyada yaşayan bəzi ermənilər də eyni mövqedən çıxış edir. Məsələn, Rusiya Federasiyası hökuməti yanında Maliyyə Universitetinin siyasi elmlər üzrə dosenti Qevorq Mirzoyan bu xüsusda bildirir: "Erməni xalqının necə qiymətləndirməsindən asılı olmayaraq, Rusiyada nasist Nijdenin abidəsi olmamalıdır. Biz Hitlerlə işbirliyində olan, onu dəstəkləyən istənilən şəxs üçün abidələrdən danışırıqsa, nəinki İkinci Dünya Müharibəsi, məhz Böyük Vətən Müharibəsi zamanı sovet xalqını məhv etmək üçün vuruşanlara qarşı ortaq mövqe olmalıdır. Böyük Vətən Müharibəsi dövründə Hitlerlə əməkdaşlıq edən, onunla işbirliyində olan insanlara Rusiya ərazisində xatirə lövhələri, abidələr qoyulmamalıdır".

Rusiyalı tarixçi Oleq Kuznetsov da bildirib ki, bu gün Ermənistanda qəhrəman kimi təqdim olunan Njdenin Hitlerin nasist ideologiyasının tərəfdarı olması ilə bağlı danılmaz sübutlar, sənədlər var: "Bu sənədlərdə Njde hərəkət etməyi Hitlerdən öyrənməyin lazım olduğunu deyir. Njde Hitlerin yəhudilərin başına gətirdiklərini misal göstərərək, ermənilərin türklərə və müsəlmanlara qarşı eyni hərəkət etməsi ilə bağlı çağırış edib. Bu onun üçün yeni deyildi, o, dörd müharibədə bu praktikadan uğurla istifadə edib".

Xatırladaq ki, faşizmə xidmət etməklə yanaşı, Njde müasir Ermənistan ərazisində etnik təmizləmə aparan, dinc müsəlman əhalisini qıran cinayətkar daşnak təşkilatına da rəhbərlik edib. Njde Zəngəzur və Qarabağın minlərlə müdafiəsiz vətəndaşını öldürməkdə də günahkardır.

***Nahid SALAYEV***

# Radikal müxalifətin rəzil durumu və bitməz inqilab arzuları...

**Azərbaycanda və dünyada baş verən proseslərin arxasında hansı geosiyasi, geoiqtisadi, yaxud lokal siyasi-iqtisadi korporativ maraqların dayandığını siyasətlə yaxından uzağa əlaqəsi olmayan vətəndaşlarımızın çoxu başa düşür. Nəinki başa düşür, hətta bir zamanlar meydanlarda, küçələrdə qaldırdığı yumruğunu azadlığın təkrarsız simvolu kimi təqdim edənlərdən daha yaxşı təhlil etməyi bacarır.**

Amma illərdir ölkənin siyasi arenasında baş girləyib aqressiv və təkrarçı ritorikalarını cəmiyyətə "siyasi intellekt nümunəsi" kimi sırımağa çalışan antimilli və dağıdıcı müxalifət təmsilçiləri ən adi reallıqları belə görmək istəmir, yaxud görə bilmirlər".

Bu sözləri Prezidentin köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənov özünün facebook səhifəsində yazıb. Ə.Həsənov daha sonra yazır:

"Fikrimizi arqumentləşdirmək üçün yaxın siyasi tariximizin dərinliklərinə dalmağa ehtiyac yoxdur, bəhs olunan müxalifət nümayəndələrinin son 15-16 il ərzində regionda və dünyada baş verən proseslərə münasibətini və nümayiş etdirdikləri davranışı yada salmaq yetərlidir.

16 il öncə Azərbaycanın radikal müxalifətinin də ilhamlandığı və az qala bayram kimi qeyd etdiyi Gürcüstandakı "qızılgül inqilabı"ndan sonra cərəyan edən prosesləri, yəqin ki, hər kəs yaxşı xatırlayır. Yaxud Ukraynada "narıncı inqilab" ssenarisinin reallaşdırıldığı dövrdə bizim radikalların orada baş verənlərin eynilə təkrarlamasına çalışdıqlarını, Ukryanadakı ilə oxşar adda partiyalar bloku qurduğu, müəyyən şəxslərin Ukraynadan narıncı geyim və qalstuk idxalı biznesindən özünə güzəran düzəltdiyini də hamı bilir. Ukraynadan Qırğızıstana qədər postsovet məkanını bürümüş "rəngli inqilab"ların çox keçmədən narıncıdan sarıya doğru necə metamorfozaya uğradığının, əvvəl "narıncılaşmanın", sonra da "saralmanın" bu ölkələr üçün hansı insani, maddi və ərazi itkiləri ilə yekunlaşmasının şahidi olduq.

Radikal müxalifət 2010-cu illərin başlanğıcında start götürmüş "ərəb baharı"ndan da vəcdə gəlmişdi. "İnqilab baharı" mövsümünün Yaxın Şərqdə yüz minlərlə günahsız insanın qətlinə, milyonlarla insanın qaçqın taleyi yaşamasına, bəşəriyyətin mədəni sərvəti olan unikal tarixi abidələrin dağıdılmasına, terrorizmə rəvac verməsinə laqeyd qalan azərbaycanlı "inqilab idxalçı"ları bu dəfə də vaxtından əvvəl sevinməyə başlamışdı. Onların hətta Tunisdə olduqca fəlakətli proseslərin katalizatoru olmuş faciəni andıran hadisənin 2013-cü ildə Bakıda təkrarlanmasından necə sevindiklərini, ekstaz keçirdiklərini təsvir etmək sözün imkanları xaricindədir. Sanki söhbət özünü yandıran insandan deyil, inqilabı körükləmək üçün tələb olunan adi bir əşyadan gedirdi.

Yaxın Şərqdə cərəyan edən proseslərin Azərbaycanın daxilinə daşınması üçün bizim radikal antimilli dairələr gecə-gündüz sosial şəbəkələrdə, internet resurslarında təbliğat aparırdı. Ölkəmizdə baş verən sıradan bir kriminal hadisəni, yaxud təməlində hansısa əhəmiyyətsiz sosial problemin dayandığı istənilən faktı "dəhşətli hüquq pozuntusu" kimi qələmə verir, müsəlman Şərqində ilk respublika quran, müasir, sivil, inkişaf etmiş Azərbaycan xalqını bu və ya digər səbəblərdən geridə qalmış cəmiyyətlərlə müqayisə etməkdən belə çəkinmirdilər. Amma bu gün onlardan heç biri özündə cəsarət tapıb vaxtilə "azadlıq uğrunda mübarizə" kimi təqdim etməyə çalışdıqları "ərəb baharı"nın göz önündə olan qanlı nəticələrindən danışmır və bətnindən terrorizm, İŞİD kimi ən dəhşətli terror bəlası doğuran prosesləri təbliğ etdiklərinə görə Azərbaycan cəmiyyətindən üzr istəmirlər.

Bəzi faktlara baxaq. "İnqilabi mövsüm" qurbanı olan ölkələrdən Liviyada yalnız 2011-ci ilin avqustuna olan göstəricilərə görə 50 mindən çox insanın həyatına son qoyulub. Bəzi mənbələrdə isə daha 30 min insanın itkin, 750 minə şəxsin qaçqın düşdüyü bildirilir. Suriyada baş verənlər isə, 2015-ci ilin statistik göstəricilərinə görə, 300 min insanın həyatına son qoyub, 4 milyon nəfər isə öz evindən didərgin düşüb. 2011-ci ildən sonra Liviyada, 2015-ci ildən sonra isə Suriyada baş verən kütləvi insan ölümlərini artıq heç kim hesablamır. Çünki günahsız insanların qətlə yetirilməsi, terror bu ölkələr üçün adi hala çevrilib. Viranə qalmış, terror qruplarının meydan suladığı bu ölkələrdə insan həyatının heç bir dəyəri yoxdur. Liviyada tuareqlərin etnik, tarixi vilayətlərin regional separatizmi ölkəni real parçalanma təhlükəsi qarşısında qoyub, vətəndaş müharibəsi səngimək bilmir, hər gün yeni qüvvələr, geosiyasi maraqlar ölkədəki münaqişəsinin dərinləşməsinə xüsusi "töhfə" verirlər. Suriyada baş verənləri isə Azərbaycan mediası kifayət qədər geniş işıqlandırıldığından, burda yaşanan humanitar fəlakəti, XIX əsr suriyalı maarifçilərin "Böyük Suriya" idealının, XX əsrin əvvəllərində və ortalarında reallaşdırılmasına təşəbbüs göstərilən panərəbizm layihələrinin necə dəfn edildiyini, Suriyanın etnik və konfessional zəmində necə parçalandığını, xarici hərbi birləşmələrin ölkədə necə söz sahibi olduqlarını xatırlatmağa lüzum görmürük. Çünki bunları Azərbaycan inqilabçılarının ideoloqu "görkəmli tarixçi professor" Cəmil Həsənli və onun "müzəffər inqilabçı lideri" Əli Kərimli bilməmiş deyil.



Sonrakı illərdə - 2017-ci ilin sentyabrında Myanmanın Arakan vilayətində Rohinca müsəlman azlığına qarşı qətliamlarla əlaqədar alovlanan qarşıdurma Azərbaycanın radikal müxalifəti üçün növbəti analogiyalar üçün bəhanə açmışdı. Az qala xalqı ittiham edirdilər ki, nəyə görə Myanmada sabitliyin pozulacağına səbəb olan hadisələr baş verir, amma bizim ölkəmizdə xalq yatıb, sabitlik pozulmur ki pozulmur.

2019-cu ilin aprelində Sudanda baş verən genişmiqyaslı nümayişlərdən sonra da bizim Cəmil Həsənli-Əli Kərimli düşərgəsini təmsil edən radikalların əsas müzakirə mövzusu akasiyaları Xartumdan Bakıya necə transfer etməyin yolları ilə bağlı idi. Halbuki, Sudanda baş verənlər Cənubi Sudanda guya soyqırım törədilməsi haqda sübut edilməmiş, sonradan bəzi beynəlxalq ekspertlər tərəfindən də təkzib edilmiş iddialarla başlayıb, Cənubi Sudanın ölkədən qoparılması ilə nəticələnmiş hadisələrin davamı olduğu hər kəsə bəlli idi. Cənubi Sudan ayrılıb müstəqilliyini elan etsə də, əsas təbii sərvətlərin istismarına başlamaq üçün açar rolunu oynayan ərazilər uğrunda mübarizə hələ bitməyib.

Bütün bunlar xaricdən müxtəlif bər-bəzəkli adlar altında ixrac olunan inqilab "ssenari"lərinin nə qədər dəhşətli nəticələrə gətirib çıxardığının bariz nümunələridir. Amma Azərbaycanın dağıdıcı müxalifəti, adını çəkdiyim professor və onun rəzil lideri bütün bunlardan nəticə çıxarmaq, ölkəmizdə mövcud olan sabitliyin, vətəndaşlarımızın təhlükəsiz bir şəraitdə yaşamasının nə qədər vacib olduğunu dərk etmək istəmir.

Radikal antimilli müxalifət həmişə olduğu kimi, bu gün də bu və ya digər xarici ölkədəki zoraki hakimiyyət dəyişikliyini "İnqilabi təbliğat" məqsədilə istifadə edir, digər ölkələrdə daxili siyasi vəziyyət gərginləşəndə ruhlanır. Ölkələr arasında fərqləri nəzərə almadan "bunlar bizdə də baş verməlidir" kimi yanlış ümidlərə qapılır, sosial bazalarını da bu ovqata kökləmək istəyirlər. Radikalların başqa ölkələrin siyasi təcrübəsindən eyforiyaya düşməsinin ən başlıca səbəbi Azərbaycan xalqından dəstək ala bilmədikləri üçün xarici mərkəz və qüvvələr arasında gizli himayədarlar axtarışına çıxmasıdır.

Müşahidələr göstərir ki, beynəlxalq qlobal media şəbəkələrinin Azərbaycandilli resursları da həmin prosesləri müxtəlif aspektlərdən geniş işıqlandıraraq antimilli müxalif qrupları ideoloji baxımdan "təlimatlandırır" və təşviq edir . Sonradan "Azadlıq" qəzeti, "Azərbaycan saatı" kimi müxalif saytlar, müxalif Youtube kanalları və sosial səhifələr mövzunu Azərbaycan üzərində fokuslayır. Budur,müxalifətə başçılıq edənlər indi də öz təfəkkür səviyyələrinə uyğun olaraq siyasi kataklizmlər üçün analogiya axtarışlarının növbəti predmeti kimi hazırda qarşıdurma yaşanan Boliviyanı nümunə seçiblər. Bu həftənin əvvəllərində Boliviya prezidenti Evo Moralesin hakimiyyətdən devrilməsi bu kontekstdə təqdim edilməkdədir. Amerika qitəsində yerli qırmızıdərili əhalini təmsil edən ilk prezident olmuş Moralesin hakimiyyəti illərində Boliviyanın qısa müddətə ciddi iqtisadi nailiyyətlər əldə etməsi, evonomika adı verilən xüsusi iqtisadi konsepsiya tətbiq etməsi, sosial rifahın, orta aylıq əmək haqqı göstəricilərinin dəfələrlə artması, 2017-ci ildə bu göstəricilərinə görə bəzi Şərqi Avropa ölkələrini belə geridə qoyması, əhalinin 60 faizindən çoxunu təşkil edən qırmızıdərililərini dini-mədəni və sosial hüquqlarını qorumaq üçün hansı mühüm addımlar atmasından qətiyyən bəhs edilmir. O cümlədən də, hazırda Boliviyada hakimiyyəti zəbt etmiş "inqilabi liderin" irqçi ağ liderlərdən biri olması, ona separatçı regionlar tərəfindən necə dəstək verilməsi Azərbaycan müxalifəti tərəfindən bilərəkdən gizlədilir. Bu uzaq ölkədə cərəyan etməkdə olan hadisələrin nəticəsi bir yana qalsın, özlərinin "demokratiya", "hüquqi dövlət" tərəfdarı olduqlarını iddia edən Cəmil Həsənli-Əli Kərimli düşərgəsi, hətta baş verənlərin mahiyyətinə nəzər salmağı belə bacarmırlar. İnsan ölümləri və hərbçilərin siyasi proseslərə müdaxiləsi ilə müşayiət olunan dövlət çevrilişi "ərəb baharı"nda olduğu kimi yenə də eyni entuziazmla təbliğ olunur. Çünki radikal müxalifət təmsilçiləri üçün öz korporativ maraqları və onları idarə edənlərin sifarişlərindən başqa müqəddəs heç nə yoxdur.

ABŞ Konqresinin Nümayəndələr Palatası "erməni soyqırımı" ilə bağlı sənəd qəbul edəndə "Vətən", "Dövlət", "Millət" hayqıran Cəmil Həsənli-Əli Kərimli düşərgəsindən səs çıxmadı. Dağlıq Qarabağdakı separatçı rejimin başçıları Konqresdə görüşlər keçirəndə onlar Vaşinqtonda Azərbaycanı hədəfə gətirməklə məşğul idilər- budur bunların "vətənpərvərliyi", "milli təəssübkeşliyi", dövlət və millət "qayğısı".

Görünən odur ki, radikal müxalifətə başçılıq edənlərin təfəkkürü dünyada baş verən prosesləri yamsılamaq, sosial şəbəkələrdə boş və mənasız kampaniya təşkil etmək, qarayaxma ilə məşğul olmaqdan o yana keçmir, cılız, qorxaq olduqları qədər də ambisioz və hikkəli danışandan başqa ortaya heç nə qoya bilmirlər.

Gözləyək, görək Boliviyadan sonra harada nə baş verəcək...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Azərbaycanla müqayisədə Ermənistanın hərbi-iqtisadi çöküşünün yeni elementləri üzə çıxır...

**Məlum həqiqətdir ki, bu gün Cənubi Qafqaz regionunda geosiyasi, geoiqtisadi dinamika sürətlə yenilənməkdə, burada tamam fərqli bir mənzərə meydana çıxmaqdadır. Bunların fonunda ekspertlər Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli imkanlarında müəyyən yeniliklərin olmasını da istisna etmir.**

İndilikdə proseslər bu qənaətə gəlməyə əsas verir ki, regionda bütün maraqlı qüvvələr, o cümlədən Türkiyə, Rusiya, Qərb, İran üçün Azərbaycanla siyasi, iqtisadi əlaqələrin dərinləşdirilməsi prioritet istiqamət təşkil edir. Eyni zamanda, maraqlı qüvvələr regionda artıq etibarlı təhlükəsizlik mühitinin formalaşmasında da olduqca maraqlıdırlar. Amma onlar görür ki, indiki mərhələdə Cənubi Qafqazda təhlükəsizlik sisteminin formalaşması qarşısındakı ən böyük maneə Ermənistanın Azərbaycana təcavüzünün aradan qaldırılmamasıdır. Elə bu səbəbdən işğalçıya qarşı beynəlxalq müstəvidə daha kəskin rəyin formalaşması özünü qabarıq surətdə büruzə verir. Belə vəziyyətdə Ermənistanın getdikcə daha təklənmiş vəziyyətə düşməsi və bu durumda işğal siyasətini davam etdirməsinin mümkünsüzlüyü də özünü qabarıq surətdə nümayiş etdirir.

Digər tərəfdən o da faktdır ki, sosial-iqtisadi sahədə böyük tənəzzül yaşayan Ermənistanın təkbaşına işğal siyasətini davam etdirməsi qeyri-mümkündür. Məhz belə şəraitdə Ermənistanda indi çoxları tərəfindən açıq etiraf olunur ki, güclü Azərbaycanın qarşısında tab gətirmək artıq müşkül məsələyə çevrilir. Erməni mediası yazır ki, orduda acınacaqlı durum Qarabağ məsələsində Ermənistan üçün daha bir ciddi problem mənbəyidir. "1-in.am" portalı qeyd edir ki, Ermənistan rəsmilərinin mövqeyinə baxmayaraq, reallıqda ordunun təminatı sahəsində problemlər Azərbaycanın daha üstün mövqeyə yiyələnməsinə gətirib çıxarır: "Müdafiə sahəsinə ayrılan xərclər məsələsi gələn il üçün özünü daha qabarıq problem kimi göstərir. Bu, silahlanmada da özünü göstərir. Ölkə rəsmiləri, o cümlədən müdafiə naziri David Tonoyan iddia edir ki, guya bu gün Ermənistan Silahlı Qüvvələri üçün müxtəlif ölkələrdən silah alınır. O, dörd belə ölkənin olduğunu deyir. Digər məsələlər arasında, Rusiya Federasiyasından başqa, Ermənistanın digər üç hərbi-texniki tərəfdaşı olan ölkələrin hansı olduğunu da aydınlaşdırmağa çalışaq. Erməni siyasi şərhçi Aram Sarkisyan bildirir:"Son bir ildə bu mövzuda çox yazmışıq, amma bu günə qədər yeni bir şey müəyyən etməyə nail olmaq mümkün olmayıb. Yeganə məlum olan şey Ermənistanın Rusiya Federasiyasından ən azı 4 ədəd Rusiya döyüş təyyarəsi, ilin sonuna və ya 2020-ci ilə qədər Ermənistana gətiriləcək Su-30 SM çoxməqsədli qırıcıları almasıdır. Digər müasir silahlar və hərbi texnikalar haqqında açıq mənbələrdə məlumat yoxdur və bunlar barədə yalnız fərziyyələr səviyyəsində danışmaq olar. Daha bir hal odur ki, Su-30 SM təyyarələrinin də deyilən vaxtda gələcəyinə tam zəmanət yoxdur və hətta məlumatlar var ki, onlar sadəcə, Rusiyanın Ermənistandakı bazası üçün göndərilir". Hərbi şərhçi Leonid Nersisyan da eyni mövqedədir. Bütün bunlar isə silahlanmada əslində problemlər olduğunu təsdiqləyir". Bu yazılanlardan aydın görünür ki, Ermənistan ordusunun silahlanması sahəsində də ciddi problemlər mövcuddur.

Moskva Siyasi və Hərbi Təhlil İnstitutu direktorunun müavini, tanınmış rus hərbi mütəxəssisi Aleksandr Xramçixin də bildirib ki, Ermənistanın Rusiyadan hələ hansı silahlar alacağını şərh edə bilməyib. Digər tərəfdaşlara gəlincə, Aleksandr Xramçixin bildirib ki, Ermənistanın hansı ölkələrdən silah aldığını və hansı silahları aldığını söyləmək çətindir: "Burada məsələ yeni silahların alınmasıdır, yoxsa istifadə olunmuş silahların alınmasıdır? Rusiyanın silahları yenidir, digərlərindən alınan silahlar istifadə edilmiş ola bilər. Ermənistan, məsələn, bəzi sistemlərin alınacağı Fransa ilə əməkdaşlıq edə bilər. Fransa hamı ilə geniş ticarət edir və bununla bağlı heç kimlə siyasi problemi yoxdur. Amma Fransadan silah alınması üçün Ermənistanın pulunun olması ciddi sual altındadır. Digər tərəfdən, konkret ad çəkmək üçün daha dəqiq bilmək lazımdır". Xramçixinin sözlərinə görə, Ermənistan Rusiyadan silahları güzəştli qiymətlərlə alır: "2020-ci ildə Ermənistan hərbi büdcənin kifayət qədər artırılmayacağını nəzərə alaraq, başqa ölkələrdən istifadə olunan silahları alacaq, çünki yalnız istifadə olunan silahlar ucuz ola bilər. Bu gün yeni silahlar ucuz deyil". Bu məzmunda Xramçixin gələn il hərbi büdcəsini təxminən 21% artıran Azərbaycana da toxunub. Rusiyalı ekspertin sözlərinə görə, bu, təbii ki, Azərbaycanın yeni silahlara malik olması deməkdir: "Təbii ki, Azərbaycan müharibəyə hazırlaşır. O həmişə buna hazırlaşıb. Bəs nə gözləyirdiniz? Azərbaycan Qarabağı istəyir, Ermənistan isə vermək istəmir. Başqa variant yoxdur. Azərbaycan müharibəyə hazırlaşır və bunun üçün ordusu ilə bağlı müvafiq addımlar atır. Ermənistan isə bu sahədə hansısa ciddi dəyişiklik edə bilmir və buna imkanı da yoxdur. Bu səbəbdən savaş başlasa, onun nəticələri Ermənistan üçün çox fəlakətli ola bilər".

Qeyd edilənlərdən aydın görünür ki, hərbi güc məsələsində də Ermənistan getdikcə daha ağır vəziyyətə düşür və Azərbaycana daha böyük fərqlə uduzur. Bundan əlavə, ordunun şəxsi heyətlə təminatı sahəsində də problemlər getdikcə qabarır. Səbəb erməni əhalisinin sürətlə azalmaqda davam etməsidir. Qeyd edək ki, Ermənistanda bu ilin ilk on ayı üçün aparılan hesablamalara görə, ölkədən miqrasiya edənlərin sayının artdığı məlum olub. Statistikaya görə, ölkədən əhalinin köçü davam edir. rəsmi rəqəmlərdə hazırda ölkə əhalisi 2,9 milyondur, amma reallıqda əhalinin sayının heç 1,5 milyona çatmadığı bildirilir. Erməni iqtisadçısı Tadevos Avetisyan bildirir ki, təkcə son üç ay ərzində əmək bazarında 51 500 nəfər işsiz azalıb. Bu tendensiya, əsasən, mühacirətin nəticəsidir. Yalnız son bir neçə ay ərzində rəsmi qeydiyyata alınmış işsizlərin 20 faizi başqa ölkələrdə iş taparaq Ermənistanı tərk edib. İşsizlər daha yaxşı bir həyat axtarışı üçün ölkəni tərk edir. Belə vəziyyətdə ordunun şəxsi heyətlə təmini ciddi problemə çevrilir. Bu hal həm də erməni iqtisadiyyatı üçün ciddi problemə çevrilir. Elə rusiyalı iqtisadçı Aleksandr Razuvayev da bildirir ki, Ermənistan məsələnin bu tərəfini Qarabağ münaqişəsi baxımından mütləq nəzərə almalıdır: "Ermənistan iqtisadiyyatı çox kiçikdir, cəmi 12.4 milyard dollardır. Müqayisə üçün deyək ki, Azərbaycan 47 milyard dollar həcmində ümumi daxili məhsula sahibdir. Ermənistan Avrasiya Birliyinə daxildir, lakin onun inkişaf səviyyəsi Belarus, Rusiya Federasiyası və Qazaxıstanla müqayisədə olduqca aşağıdır. Qırğızıstanla birlikdə Ermənistan Avrasiya Birliyində zəif halqa sayılır". Ekspert qeyd edib ki, ABŞ, Fransa, İspaniya, Rusiya kimi ölkələrdə bu qədər zəngin erməni olmasına baxmayaraq, onların nəyə görə özlərinin tarixi vətənlərinə investisiya qoymaq arzusunda olmamaları həmişə onun üçün sirr olaraq qalıb: "Dünya Bankının 2015-ci il hesabatında qeyd olunur ki, xüsusi pul köçürmələri Ermənistan ÜDM-nin 21 faizini təşkil edir. 2015-ci ildə Ermənistanda pul köçürmələri son 10 ildə ən aşağı həddə - 1.6 milyard dollara bərabər olub. Ən yüksək göstərici (2.3 milyard dollar) isə 2008-ci ildə qeydə alınıb. 2018-ci ildə Ermənistana 1.786 milyard dollar köçürülüb, 2019-cu ilin birinci yarısında isə bu rəqəm təxminən 800 milyon dollar təşkil edib. Ermənistan vətəndaşları əsasən işləmək üçün Rusiyaya üz tutur. Rusiyanın Ermənistana pul köçürmələrindəki payı 80 faizi keçir". Razuvayev qeyd edib ki, yalnız son bir neçə ayda rəsmi qeydiyyata alınmış işsizlərin 20 faizi Ermənistandan başqa ölkələrə iş axtarmağa gedib: "Qeydiyyatdan keçməyən nə qədər işsizin daha yaxşı həyat axtarışında olub ölkəni tərk etdiyini heç kim bilmir. Ancaq Rusiya hökuməti birdən-birə tikinti sahəsində çalışmaq üçün verilən kvotanı kəskin azaldıb. Bu il 52075 nəfər bu sahədə çalışmaq hüququ əldə edib. Bu arada, 2020-ci ilin yanvar ayından etibarən onların sayı 29996-a qədər azalacaq. Bildiyiniz kimi, Rusiyada işləyən Ermənistan vətəndaşlarının əksəriyyəti də elə tikinti sektorunda fəaliyyət göstərir".Ekspert əlavə edib ki, Ermənistanın xarici ticarət dövriyyəsinin 30 faizə qədərini Avrasiya Birliyi təşkil edir. Bu həcmin, demək olar ki, hamısı Rusiya ilə ticarətdən ibarətdir: "Təbii ki, Ermənistan birdən-birə Qərbi seçsə, pul köçürmələri kimi, Rusiyanın iqtisadi, xarici siyasət sanksiyaları da çox ağrılı olacaq. Ermənistanın hazırkı liderlərinin nəyə görə Qərbə bu qədər inandığını söyləmək çətindir.

Yəqin ki, onlar əvvəldən qeyri-müstəqil fiqurlardır. Keçmiş SSRİ-yə nəzər salsaq, görərik ki, sırf qərbyönlü olmayan Azərbaycan, Rusiya və Qazaxıstan kimi suveren ölkələr uğura nail olublar. İndiki halda Ermənistan hansı istiqamətdə irəlilədiyini dəqiq müəyyən edə bilmir, iqtisadiyyatı zəifləyir. Bu isə onun Qarabağ siyasətinə də təsir edir və Azərbaycan üçün belə vəziyyət Bakının daha güclü mövqe sahibinə çevrilməsi deməkdir".

Bütün bu qeyd edilənlər aydın göstərir ki, indi formalaşmış bütün şərtlər Azərbaycanın lehinədir. Bura istər regional, istərsə də daha geniş miqyasda formalaşmış şərtlər, siyasi, hərbi, iqtisadi və digər parametrlər daxildir. Məhz bu halda da Ermənistanın işğal siyasətini davam etdirməsi mümkünsüz bir hala gəlir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Qəbələ dəmir yolu - Azərbaycan Prezidenti Sovet hakimiyyətinin səhvini düzəldir

**Azərbaycanda turizmin inkişafı üçün əlverişli imkanlara malik olan bölgələrdən biri də Qəbələ rayonudur. Məlumdur ki, Azərbaycanın gözəl məkanlarından biri olan Qəbələ həm də çoxlu sayda tarixi abidəsi, maddi-mədəniyyət nümunələri ilə məşhurdur. Bu tarixi abidələr Qəbələnin tarixinin min illər bundan əvvəllərə gedib çıxdığını göstərir.**




Bu füsunkar yurd yerinin qədim tarixi, adət-ənənələri, xalq sənəti nümunələri çox zəngindir. Şanlı keçmişə malik və yüz illər boyu Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələnin hansı daşını tərpətsən, haraya ayaq bassan, orada min illər bundan əvvəlki tariximizin izlərini görmək olar. Qəbələnin hər daşı, hər ağacı, hər qayası canlı bir tarix, ulularımızın bizə yadigar qoyub getdiyi əvəzsiz incilərdir.

Qeyd edək ki, son illər Qəbələ bir sıra beynəlxalq mədəni-kütləvi tədbirlərə evsahibliyi edir. Həmin tədbirlər nəticəsində bu rayona işgüzar səfərə və istirahətə gələnlərin sayı dəfələrlə artıb. Artıq ənənə halını almış və hər ilin yay aylarında keçirilən Qəbələ Beynəlxalq musiqi festivalında dünyanın 20-yə yaxın ölkəsindən dünya şöhrətli musiqiçilər iştirak edirlər. Festivalda səsləndirilən klassik musiqiləri canlı dinləmək üçün yüzlərlə yerli və xarici musiqi həvəskarı Qəbələyə təşrif buyurur. Qonaqlar musiqi bayramında iştirak etməklə yanaşı, rayonun müasir turizm obyektlərində dincəlir, tarixi abidələri ilə tanış olur, əsrarəngiz təbiətini seyr edirlər. Onu da bildirək ki, hər il iyunun 15-də Qəbələ rayonunda turizm mövsümünə rəsmən start verilsə də, artıq mayın ortalarından başlayaraq turistlərin bu əraziyə intensiv axını müşahidə olunur.

Tək cari ilin 9 ayı ərzində Qəbələyə 150 mindən çox turist gedib. Gələcəkdə bu rəqəmin daha da artacağı istisna olunmur.

Qeyd etdiyimiz kimi, son illər Qəbələyə üz tutan turistlərin sayı artmaqda davam edir. Turistlərin Qəbələyə rahat şəkildə getməsi üçün ora dəmir yolunun çəkilməsinin vacibliyi qeyd olunur.

Bu günlərdə Prezident İlham Əliyev "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovu qəbul edərkən Qəbələyı dəmir yolunun çəkilməsinin əhəmiyyəti haqqında fikir bildirib. Prezident qeyd edib ki, turizm mərkəzlərindən biri olan Qəbələ şəhərinə dəmir yolunun çəkilişi layihəsi davam etdirilir: "Sovet vaxtında Qəbələyə dəmir yolu çəkilməmişdir, buna ehtiyac yox idi, ancaq hazırda buna böyük ehtiyac var. Mən bu təşəbbüsü irəli sürəndə bəziləri fikirləşirdilər ki, buna ehtiyac yoxdur. Halbuki, bu yaxınlarda Qəbələdə olarkən mənə məlumat verildi ki, bu ilin 9 ayında Qəbələyə 150 min turist gəlmişdir.

***Nahid Bağırov:** "Qəbələyə dəmir yolu xətlərinin çəkilməsi ora gedən yolun məsafəsinin və səfər müddətinin azalmasına gətirib çıxaracaq"*

***Ruslan Quliyev:** "Qəbələyə çəkiləcək dəmir yolu nəinki daxili turizmin, həmçinin, beynəlxalq turizmin inkişafına da töhfəsini verəcək"*

Ancaq söhbət otellərdə yerləşən turistlərdən gedir. Əgər fərdi qaydada evlərdə kirayədə qalan turistləri nəzərə alsaq, bu, əlavə 150 min olacaq. Qəbələyə 300 min turist gəlib. Qəbələyə bir yol var - Şamaxı-Qəbələ yolu. O yol da artıq mənim göstərişimlə yenidən qurulacaq. Əlbəttə ki, bu yol artan turizm qrafikini götürə bilməyəcək. Ona görə Ləkidən Qəbələyə dəmir yolunun çəkilməsi xüsusi əhəmiyyət daşıyır".

Turizmin inkişafı baxımından Qəbələyə dəmir yolu xəttinin çəkilməsinin əhəmiyyəti haqqında danışan Azərbaycan Turizm Assosiasiyasının (AzTA) sədri Nahid Bağırov qeyd edib ki, Qəbələ, Quba və Qusar infrastruktur baxımından turistlərin üz tutduqları yerlər arasında ön sıralarda dayanır: "Bu regionlar turistlər arasında prioritet sırada dayanır. Xüsusən də ərəblər arasında bu bölgələr çox məşhurdur. Qəbələyə dəmir yolu xətlərinin çəkilməsi ora gedən yolun məsafəsinin və səfər müddətinin azalmasına gətirib çıxaracaq. Bu da bölgələrin turizm imkanlarını genişləndirməklə bərabər, iqtisadi inkişafını da sürətləndirəcək".

Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının sədri Ruslan Quliyev bildirdi ki, qatar turizmi Avropada və digər inkişaf etmiş ölkələrdə böyük inkişaf yolu keçib. Onun sözlərinə görə, qatar turizminin inkişaf etdirilməsinə böyük ehtiyac var: "Qatar turizmini bu gün Azərbaycan üçün çox aktual turizm növlərindən biri hesab etmək olar. Bu nəqliyyat vasitəsi həm də məktəblilər və gənclər üçün geniş imkanlar yaradır. Dəmir yolu nəqliyyat vasitəsi turistlər üçün çox cəlbedicidir, çünki digərlərinə nisbətən daha təhlükəsiz hesab olunur. Qatarla səyahət edən turistlər ətrafdakı mənzərəni daha rahat seyr edə bilirlər. Həmçinin, getdikləri yerə daha rahat çatma baxımından nəqliyyatın bu növü daha sərfəlidir".

Həmsöhbətimiz onu da vurğuladı ki, Qəbələyə çəkiləcək dəmir yolu nəinki daxili turizmin, həmçinin, beynəlxalq turizmin inkişafına da töhfəsini verəcək: "Həmin yerə qatar hərəkət etdikdən sonra ölkəyə gələn turistlərin sayı artacaq. Qəbələyə qatarla getmək reallaşandan sonra bu, kütləvi turizmə də təsir edəcək".

*Günel CƏLİLOVA*

---

# Lapis-Lazuli və Bakı-Tiflis-Qars dəmir yollarının birləşdirilməsi - Azərbaycanın yeni nəqliyyat-tranzit imkanları...

**"Biz Lapis-Lazuli dəmir yolu ilə Bakı-Tbilisi-Qars dəmir yolunu birləşdirə bilmişik. Bu da böyük imkanlar yaradır". Bunu Prezident İlham Əliyev "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovu qəbul edərkən deyib.**

Dövlət başçısı bildirib ki, bu gün Azərbaycan etibarlı tranzit ölkə kimi öz xidmətlərini göstərir. Ölkə başçısının sözlərinə görə, beynəlxalq təşkilatların hesabatında qeyd olunub ki, Azərbaycan çox etibarlı və önəmli tranzit ölkəyə çevrilib: "Biz hazırda Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarından daha geniş miqyasda istifadə edirik, keçən il təqribən 300 min tona yaxın yük daşınmışdır. Önəmli məsələ ondan ibarətdir ki, biz artıq təkcə Asiya ölkələrindən gələn yüklərlə kifayətlənmirik, eyni zamanda, Avropa məkanında da fəal əməkdaşlıq edirik və bəzi Avropa ölkələrinin bu yoldan istifadə etməsi artıq reallığa çevrilib. Biz artıq Çindən konteyner qatarları qəbul etməyə başlamışıq. Çin-Qazaxıstan-Azərbaycan-Avropa dəhlizi fəaliyyət göstərir. Eyni zamanda, son müddət ərzində Əfqanıstan-Türkmənistan-Azərbaycan-Avropa istiqamətinə yüklər daşınır. Biz Lapis-Lazuli dəmir yolu ilə Bakı-Tbilisi-Qars dəmir yolunu birləşdirə bilmişik. Bu da böyük imkanlar yaradır. Mənim Orta Asiya respublikalarının prezidentləri ilə keçirdiyim görüşlər əsnasında dəmir yolu daşınmaları haqqında kifayət qədər geniş fikir mübadiləsi aparılmışdır. Hazırda Özbəkistan və Tacikistanla bizim dəhlizimizdən istifadə imkanlarını müzakirə edirik və əminəm ki, bu istiqamətdə də uğurlar əldə olunacaq".

Görünən odur ki, Azərbaycanın beynəlxalq yükdaşımalarda rolu get-gedə daha da artır. Bu baxımdan Lapis-Lazuli dəmir yolu ilə Bakı-Tbilisi-Qars dəmir yolunun birləşdirilməsi Azərbaycanın dünyada tranzit, nəqliyyat mərkəzi olaraq mövqeyinin möhkəmlənməsində necə rol oynayacaq?

Məsələyə münasibət bildirən nəqliyyat məsələləri üzrə ekspert Azər Allahverənovun sözlərinə görə, bu hər iki sahədə Azərbaycanın rolunun artmasına öz töhfəsini verəcək: "Lapis-Lazuli dəmir yolu ilə Bakı-Tbilisi-Qars dəmir yolunun birləşdirilməsi böyük imkanlar yaradır. Bütün bunlar onu göstərir ki, söhbət bütün Orta Asiya ölkələrini əhatə edən yükdaşıma dəhlizindən gedir. Artıq Orta Asiya ölkələri bilavasitə olaraq beynəlxalq yükdaşımaların fəal istifadəçisinə çevrililər. Aydın məsələdir ki, BTQ olmasaydı, Lapis-Lazuli dəmir yolu bu cür səmərəli şəbəkəyə qoşula bilməzdi. Ötən il BTQ ilə 300 min ton yük daşınıb. İldən-ilə bu yolla daşınan yüklərin həcmi artır. Söhbət tək Çindən başlayaraq Avropa ölkələrinə yüklərin daşınmasından getmir. Söhbət həm də əks istiqamətdə yüklərin daşınmasından gedir. Orta Asiya ölkələri Avropada istehsal edilən məhsulların fəal istehlakçısıdır. BTQ sayəsində Orta Asiya ölkələri həm idxaldan, həm də ixracdan yararlanacaqlar. Bu baxımdan, BTQ, ümumiyyətlə, Azərbaycanın beynəlxalq yükdaşımalarda rolunun nədən ibarət olmasını təsdiq edən bir sübutdur. Bunun bir sıra dividendləri olacaq. Çünki yükdaşımada həcm artırsa, bu, əlavə kapital axını deməkdir.

***Azər Allahverənov:** "Sözügedən dəmir yollarının birləşdirilməsi Azərbaycanın tranzit və nəqliyyat mərkəzi olaraq rolunun artmasına öz töhfəsini verəcək"*




## "Bunun bir sıra dividendləri olacaq"

Həcm artırsa, bu, Azərbaycan üçün beynəlxalq yükdaşımalar müstəvisində yeni imkanların açılması deməkdir. Həcm artırsa, bu həm də ölkənin siyasi nüfuzunun artmasına gətirib çıxarır. Yeni iqtisadi, texnoloji, nəqliyyat və siyasi müstəvidə bir çox ciddi uğurun əldə edilməsinə xidmət edən bir məsələdir. Digər tərəfdən, iqtisadi baxımdan bunun faydası çoxşaxəlidir. Bu təkcə tranzit gəlirlərin artması demək deyil. Bu iqtisadiyyatın, bölgələrin inkişafıdır, əlavə iş yerlərinin açılması deməkdir. Bütün bunların nəticəsidir ki, Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında dəmir yollarının səviyyəsinə və keyfiyyətinə görə Azərbaycan dünya miqyasında 34-cü yerdədir. Nəqliyyat infrastrukturunun səviyyəsinə görə isə 31-ci yerdədir".

*Vidadi ORDAHALLI*

# Azərbaycanın Avrasiya nəqliyyat strategiyası özünü tam doğruldur - Tacikistan - Əfqanıstan - Türkmənistan dəmir yolu Azərbaycanla birləşdiriləcək

**Ölkə ərazisində müasir nəqliyyat infrastrukturu yaradan Azərbaycan üçün prioritet məsələlərdən biri də ərazisindən daha çox yükdışmaların axınını təmin etməkdir. Çünki bu hal qeyri-neft sektorunun mühüm bir qolu kimi Azərbaycanın böyük həcmdə gəlirlər əldə etməsini təmin edir.**

Belə görünür ki, bu xüsusda atılan addımlar tədricən öz müsbət nəticələrini verir.

Xatırladaq ki, bu məsələyə Prezident İlham Əliyev "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovu qəbul edərkən xüsusi olaraq toxunub. Dövlət başçısı burada qeyd edib ki, bu gün qeyri-neft sektorunun ümumi daxili məhsuldakı payının çoxaldılması istiqamətində nəqliyyat sektorunun rolu artmaqdadır: "Biz hazırda Bakı-Tiflis-Qars dəmir yolunun imkanlarından daha geniş miqyasda istifadə edirik, keçən il təqribən 300 min tona yaxın yük daşınmışdır. Önəmli məsələ ondan ibarətdir ki, biz artıq təkcə Asiya ölkələrindən gələn yüklərlə kifayətlənmirik, eyni zamanda, Avropa məkanında da fəal əməkdaşlıq edirik və bəzi Avropa ölkələrinin bu yoldan istifadə etməsi artıq reallığa çevrilib. Biz artıq Çindən konteyner qatarları qəbul etməyə başlamışıq. Çin-Qazaxıstan-Azərbaycan-Avropa dəhlizi fəaliyyət göstərir. Eyni zamanda, son müddət ərzində Əfqanıstan-Türkmənistan-Azərbaycan-Avropa istiqamətinə yüklər daşınır. Biz Lapis-Lazuli dəmir yolu ilə Bakı-Tiflis-Qars dəmir yolunu birləşdirə bilmişik. Bu da böyük imkanlar yaradır. Mənim Orta Asiya respublikalarının prezidentləri ilə keçirdiyim görüşlər əsnasında dəmir yolu daşınmaları haqqında kifayət qədər geniş fikir mübadiləsi aparılmışdır. Hazırda Özbəkistan və Tacikistanla bizim dəhlizimizdən istifadə imkanlarını müzakirə edirik və əminəm ki, bu istiqamətdə də uğurlar əldə olunacaq".




Qeyd edək ki, Özbəkistanla aparılan danışıqlar artıq öz nəticələrini verməkdədir. Belə ki, Özbəkistan Nəqliyyat Nazirliyi 2020-ci ildə Bakı-Tiflis-Qars dəmir yolunda pilot tranzit daşınmalarına başlamaq niyyətindədir. Bununla bağlı olaraq Özbəkistan Nəqliyyat Nazirliyinin rəhbərliyi və "Azərbaycan Dəmir Yolları" QSC müvafiq razılığa gəlib. Bundan əlavə, iki ölkənin tranzit potensialının inkişaf perspektivləri və Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan-Azərbaycan-Gürcüstan marşrutu boyunca multimodal nəqliyyatın təşkili məsələləri də diqqət mərkəzindədir. "Özbəkistan Dəmir Yolları" SC-nin İdarə Heyətinin sədri Xusnutdin Xasilov isə bildirir ki, ölkəsi Bakı-Tiflis-Qars dəmir yolu marşrutundan fəal istifadə etməkdə və xarici ticarət yüklərinin daşınma həcminin artırılmasında maraqlıdır.

Orta Asiyanın digər ölkəsi olan Tacikistan da əslində prosesdə maraqlıdır. Bundan əvvəl Tacikistanın Azərbaycandakı səfiri Zohir Saidov bildirmişdi ki, onun da ölkəsi bu dəmiryol xəttinin fəaliyyətində iştirak niyyətindədir: "Biz gələcəkdə Tacikistan-Əfqanıstan-Türkmənistan dəmir yolu xəttinin Azərbaycanın dəmir yolu xətlərinə qoşulması layihəsinin perspektivlərini nəzərdən keçiririk". Onun sözlərinə görə, bu dəmir yolları xətlərinin birləşməsi ilə gələcəkdə Mərkəzi Asiyadan Avropaya qədər uzanacaq yolun önünü açmaq olar: "Qeyd etmək lazımdır ki, ölkələrimiz arasında qarşılıqlı ticarətin inkişafına mane olan amillərdən biri nəqliyyat-kommunikasiya imkanlarının məhdudluğudur. Ölkəmizin coğrafi mövqeyini nəzərə alsaq, bu cür ticarət, təbii ki, zəruri infrastrukturun yaradılmasını tələb edir. Tacikistan iqtisadiyyatımızın lokomotivi olan alüminium istehsalı üçün gil torpaq və neft koksu idxalında maraqlıdır. Üstəlik, Azərbaycana Gəncə zavodunda yenidən işlənməsi üçün anod blokları və boksit ixracında, ardından isə bu prosesdən yaranacaq və alüminiumun əridilməsi zamanı istifadə olunan alüminium-oksidin alışında maraqlıyıq".

Bütün bunlar onu göstərir ki, yaxın tezlikdə Orta Asiya ölkələrinin hamısının Bakı-Tiflis-Qars dəmir yolundan istifadəsini gözləmək olar. Xatırladaq ki, artıq Qazaxıstan, Türkmənistan yüklərinin bu marşrutla daşınması həyata keçirilir. Digər tərəfdən, Azərbaycanın nəqliyyat marşrutlarına qoşulmaq Orta Asiyanın dünya bazarlarına çıxışını təmin edir. Artıq Çinin də Bakı-Tiflis-Qarsdan istifadə etməsi Orta Asiya ölkələrinin bu xüsusda marağını artırır. Onlar bununla "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərindən istifadənin mümkünlüyünü da yaxşı bilirlər. Rusiyanın Qlobal Problemlər Mərkəzinin eksperti Aleksandr Tokarev qeyd edir ki, Azərbaycanın tranzit imkanları, əslində təkcə Orta Asiya ölkələri yox, digər MDB üzvləri, o cümlədən Rusiya üçün də olduqca maraqlıdır: "Bunlar da təsadüfi deyil. Təkcə "Şimal-Cənub"a baxmaq kifayətdir. Coğrafiya və iqtisadiyyat ilk növbədə Azərbaycanın "Şimal-Cənub"da iştirakını diktə edir. Azərbaycan, Rusiya, İran və Hindistan "Şimal-Cənub" nəqliyyat dəhlizinin fəaliyyət göstərməsində maraqlıdır. Belə ki, Çinə rəqib olan Hindistan öz mallarını "Şimal-Cənub"la Avropaya daşımaq uğrunda mübarizə aparacaq. Rusiya isə, öz növbəsində, yüksək texnoloji malların təchizatında maraqlıdır. Lakin hər şey İrana və bu ölkədə inkişaf etməmiş nəqliyyat infrastrukturuna dirənir. Bu mənada, Azərbaycan qonşusu ilə müqayisədə böyük üstünlüyə malikdir. Azərbaycanın üstünlüklərindən biri də onun Rusiya ilə İranı birləşdirən yeganə ölkə olmasındadır. Məlum səbəblərdən Ermənistan və Gürcüstandan dəhliz tikmək, ən azından, Rusiya və Gürcüstan arasında olan ziddiyitlərdən dolayı çox problemlidir. Azərbaycan obyektiv olaraq "Şimal-Cənub" layihəsinin adekvat, ən rahat iştirakçısıdır.

Azərbaycan çoxvektorlu siyasət çərçivəsində Çinlə strateji münasibətlərə can atacaq və bu, qlobal dünyada adekvat yanaşma sayılır. Lakin perspektivdə respublika daha çox "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizini inkişaf etdirəcək. Bu zaman Azərbaycan həmin konteyner daşınmaları üçün çox gözəl tranzit ölkəsi rolunu oynayacaq. Bu mənada MDB-də, o cümlədən Orta Asiyada Azərbaycana artan diqqət heç də təsadüfi xarakter daşımır". Bütün bunlar qarşıdakı dövr ərzində Azərbaycanın tranzit yükdaşımalardan kifayət qədər böyük gəlirlər əldə edəcəyini aydın nümayiş etdirir.

***Tahir TAĞIYEV***

**Bəzi internet səhifələri və media quruluşlarında bu ilin avqust ayında Bakıda baş verən bir kriminal hadisə ilə bağlı məlumat yayılıb. Əslində, buna təəccüblü bir hadisə kimi baxmaq da olmazdı. Çünki istənilən analoji cinayət hadisələri ilə bağlı biz KİV-də məlumatların işıqlandığını görürük. Ancaq bizim söz açacağımız xəbərdəki təqdimat bir qədər yanlış istiqamətdə verilib.**

# Nəvənin qanunsuz əməlinə görə babanı, hətta əmiləri hədəfə gətirən media quruluşları - Şəmsəddin Əliyevin timsalında...



## *Yadigar Məmmədli: "Etik kodeksə, KİV haqqında qanunun tələblərinə uyğun gəlməyən bu qəbildən olan təqdimatlar həm də qanun pozuntusu sayılır"*

Daha doğrusu, bir gəncin etdiyi cinayətə görə onun cəmiyyətdə nüfuz qazanmış, müəyyən ictimai mövqeyə sahib olan atası, babası və digər yaxınları hədəfə alınır. Törədilmiş cinayətin motivi qalır bir qıraqda, xəbərin təqdimatında böyük bir səhvə yol vermiş gəncin babasının fotoları paylaşılır.

Söhbət 1999-cu il təvəllüdlü Qurbanlı Aslan Azər oğlunun törətdiyi cinayətdən gedir. Hansısa jurnalistlərə məlum olub ki, sən demə, bu cavan oğlan Azərbaycan Mətbuat Şurasının icraçı katibi Şəmsəddin Əliyevin qız nəvəsiymiş. Həmin jurnalist həm də "araşdırıb" ki, Şəmsəddin Əliyev həm də DİN rəsmisi Orxan Mansurzadə ilə yaxın qohum imiş. Bunlar da kifayət edib ki, ali məktəb tələbəsi olan bir gəncin səhvi ucbatından baş vermiş hadisədə sözügedən tanınmış şəxslərin adları hallandırılsın. Biz bilirik ki, istər Ş.Əliyev, istərsə də O.Mansurzadə uzun illər polis orqanlarında cinayətkarlıqla mübarizə sahəsində fəaliyyət göstəriblər. Ş.Əliyev müxtəlif illərdə rayonlarda polis rəisi kimi çalışıb, hazırda da "Polisə Dəstək" İctimai Birliyinə sədrlik edir. Belə bir yol keçmiş şəxsin adını gənc nəvəsinin etdiyi səhvə görə hallandırıb, xəbəri onun fotosu ilə təqdim etmək nə dərəcədə media etikasına uyğundur?

Media məsələləri üzrə ekspert Yadigar Məmmədli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə halların olması peşəkar medianın adına xələl gətirir: "Bilirsiniz ki, medianın da fəaliyyəti müəyyən qanunlarla tənzimlənir. Etik kodeksə, KİV haqqında qanunun tələblərinə uyğun gəlməyən bu qəbildən olan təqdimatlar həm də qanun pozuntusu sayılır. Bəzən görürük ki, kimisə hədəfə alan kampaniya xarakterli materiallar verilir. 10-15 sayt guya həmrəylik göstərən kimi bir yerə yığışırlar və həmin qaralama işində yaxından iştirak edirlər. Araşdıranda məlum olur ki, burada yalnız hansısa korporativ maraq güdülür. Təbii ki, ciddi media nümunələri belə materialları dərc etmirlər. Çox təəssüf ki, Azərbaycanda mətbuat adına iddialı olanların sırasında yalnız peşəkarlar deyil. Bu missiyanı üzərinə götürüb, ancaq mediadan xəbəri olmayan kifayət qədər şəxs tanıyırıq. Bu, yalnız Ş.Əliyevlə bağlı yaşanan hal deyil. Biz analoji hallarla çox rastlaşırıq. Hadisə baş veribsə, bunun cinayəti törədənin yaxınına, qohumuna nə aidiyyəti ola bilər? Şəxs cinayət törədibsə, qanun qarşısında cavab verəcək. Onun əvəzinə məgər qohumu gedib məsuliyyət daşımalıdır? Bundan əlavə, təqsirsizlik prezumpsiyası deyilən bir anlayış var. Şəxsin barəsində məhkəmə hökmü olmadan heç cinayətdə ittiham olunan şəxsi də mediada qatı cinayətkar obrazında təqdim etmək olmaz. Nə bilirik, bəlkə məhkəmədə onun cinayəti heç sübut olunmadı.

Söhbət yalnız bu haldan deyil, ümumi anlamdan gedir. Belə xəbərlərin təqdimatında maksimum ehtiyatlı olmalıyıq. Konkret halla bağlı isə deyə bilərəm ki, həmin hadisədə Ş.Əliyevin və ya O.Mansurzadənin adının hallanması media etikası baxımından düz deyil. Bu adamların işləri tamamilə başqadır. Ələlxüsus da həmin adamlar daim cinayətkarlıqla mübarizədə olublar. Məsələni bu şəkildə təqdim etməklə həm də çaşqınlıq yaradılır. Belə halları qətiyyən medianın funksiyası sırasına aid edə bilmərik".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Prezident İlham Əliyev "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovu qəbul edərkən ölkənin nəqliyyat sektorunda xüsusi yeri olan dəmir yolunun hazırkı vəziyyətinə toxunub.**

# Azərbaycanda qatarların sürəti 40 kilometrdən 140-a qaldırılsa...



## *Rəşad Həsənov: "Sürətin artırılması son nəticədə həm zamana qənaət edilməsinə, həm də insanların bu kimi nəqliyyat vasitələrindən istifadəyə marağının artmasına gətirib çıxara bilər"*

Bu sahədə qarşıda duran bir sıra vəzifələrin həyata keçirilməli olduğunu deyən ölkə başçısı qeyd edib ki, vətəndaşların mənzil başına vaxt itkisinə yol vermədən çatdırılması, rahat gediş-gəlişin təmin edilməsi üçün daha geniş işlər görülməlidir: "…Eyni zamanda, baxmayaraq ki, Şimal-Cənub nəqliyyat dəhlizi işləyir, ancaq Bakı-Yalama və Ələt-Astara dəmir yollarının vəziyyəti bizi qane edə bilməz. Çünki vaxtilə orada təmir işləri aparılmamışdır. Yollar tamamilə yenidən qurulmalıdır ki, qatarların sürəti artsın. Hazırda qatarlar saatda təqribən 40, maksimum 50 kilometr sürətlə gedir. Bu, böyük yükləri daşımağa və sərnişinlərə keyfiyyətli xidmət göstərməyə imkan vermir. Ona görə bizim məqsədimiz həm Şərq-Qərb, həm də Şimal-Cənub nəqliyyat dəhlizlərinin dəmir yolu hissəsinin modernləşdirilməsidir. Elə etməliyik ki, qatarlar saatda minimum 140 kilometr sürətlə hərəkət edə bilsin. Artıq Bakı-Yalama və Ələt-Astara dəmir yollarının modernləşdirilməsi prosesi başlanmışdır…".

Azərbaycanda qatarların sürətinin saatda minimum 140 kilometrə çatdırılmasının sərnişinlərin rahatlığının təmin olunmasında, onların vaxt itkisinə yol verməmədən vaxtında mənzil başına çatdırılmasında, ümumiyyətlə, bu sahədə hərəkətin daha dinamik olmasında nə kimi effektiv təsiri olacaq?

Ekspertlər qeyd edirlər ki, sərnişin qatarlarının sürət həddinin qaldırılmasına ciddi ehtiyac var. Onlar hesab edirlər ki, qatarların sürət həddinin 40-dan 140 km-ə çatdırılması sərnişinlərin, turistlərin hərtərəfli rahatlığının təmin edilməsi, eyni zamanda, onların tıxaca düşmədən, əlavə maneə ilə üzləşmədən mənzil başına çatmasına şərait yaradacaq.

Tanınmış iqtisadçı-ekspert Rəşad Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, sürət həddinin 140-a çatdırılmasının müsbət tərəfləri çoxdur, onlardan biri də sərnişin məmnunluğunun təmin edilməsidir: "Ümumiyyətlə götürdükdə, dövlət müəssisələri arasında "Azərbaycan Dəmir Yolları" ən aşağı keyfiyyətdə xidmət göstərən müəssisələrdən biridir. Bu günə qədər bu sahəyə kifayət qədər vəsait xərclənməsinə, investisiya qoyulmasına baxmayaraq, hələ də Azərbaycanda bu seqmentin xidmətlərinin səviyyəsi dünya standartlarından qat-qat aşağıdır. Sürət həddi də burada parametrlərdən biridir. Sözsüz ki, infrastruktur müasir tələblərə uyğunlaşdırılmalıdır. Artıq regionda tranzit qovşağına çevrilmək iddiasını ortaya qoymuşuqsa, bu, məcburi çağırışlardan biridir, bu istiqamətdə addımların atılmasına ehtiyac var. Təbii ki, qatarların sürətinin 40-dan 140-a çatdırılmasının böyük əhəmiyyəti olacaq. Sürətin artırılması son nəticədə həm zamana qənaət edilməsinə, həm insanların bu kimi nəqliyyat vasitələrindən istifadəyə marağının artmasına gətirib çıxara, eyni zamanda, turizm üçün də kifayət qədər əhəmiyyətli potensial formalaşdıra bilər. Bu gün bilirik ki, "Azərbaycan Dəmir Yolları" bir neçə ölkəyə, o cümlədən də Rusiyaya, Gürcüstana sərnişin daşıyır, yaxın zamanlarda isə Türkiyəyə sərnişin daşıyacaq. Sərnişinlərin daşınmasında sürət həddinin artması əhəmiyyətli faktorlardan, məqamlardan biridir. Bu baxımdan da müsbət nəticələrə gətirib çıxara bilər".

*"...dəmir yollarının yüksək gəlirlə fəaliyyət göstərməsi üçün bir baza..."*

R.Həsənov qeyd etdi ki, dəmir yolları biznes infrastrukturu üçün də çox əhəmiyyətli seqmentlərdən hesab olunur. "Yüklərin dəmir yolu ilə daşınması ən aşağı xərcli nəqliyyat növü hesab olunur. Sürətin artırılması dəmir yolundan istifadə potensialını genişləndirə və dəmir yollarının yüksək gəlirlə fəaliyyət göstərməsi üçün bir baza formalaşdıra bilər, həmçinin, biznesin tranzit nəqliyyat xərclərini də aşağı salmış olar. Dəmir yollarında təklif olunan xidmətlərin artırılması, o cümlədən də sürətin artırılması iqtisadiyyatın bütün seqmentlərinə mərhələli şəkildə öz təsirini göstərə bilər" -deyə R.Həsənov qeyd etdi.

***İradə SARIYEVA***

# Şprislərlə bağlı milli standart - Azərbaycan tibb biznesi sahəsində ən qalmaqallı məsələ həll edildi...

**Məlum olduğu kimi, son zamanlar bazarda keyfiyyətsiz şprislərin olması barədə məlumatlar yayılmaqdadır. Bildirilir ki, dövriyyədə Çin istehsalı olan ucuz şprislər var. Onların da satış qiyməti ucuz olduğundan, alıcıların bəzisi saxta şprisləri almağı üstünlük verir.**

*"Birdəfəlik şprislərlə bağlı milli standartın tətbiq olunması yerli tibbi ləvazimatların xaricdə tanınmasına səbəb olacaq"*

***Rasif Bağırov:** "...saxta tibbi ləvazimatların dövriyyədən çıxmasına..."*

Onu da qeyd edək ki, Azərbaycanda "Diamed Co" şpris zavodu fəaliyyət göstərir. Həmin zavodda yerli şprislər istehsal olunur.

Son zamanlar şpris sahəsində yaşanan qalmaqala son qoymaq üçün şprislərlə bağlı milli standart hazırlanır.

Şprislərlə bağlı milli standartın hazırlanmasında məqsəd Azərbaycanın standartlaşdırma sistemini təkmilləşdirmək, insanların həyat və sağlamlığının qorunmasını təmin etməkdir. Qeyd edək ki, şprislərə dair standartın qəbul olunması ilə bağlı Azərbaycan Standartlaşdırma İnstitutu qərar qəbul edib.

İnstitutun yaydığı məlumatda qeyd olunur ki, məqsəd Azərbaycanın standartlaşdırma sistemini təkmilləşdirmək, daxili və xarici bazarda rəqabətə davamlı tibbi avadanlıqları istehsal etmək və həmin malların beynəlxalq norma və qaydalara uyğunlaşdırılmasını, o cümlədən, insanların həyat və sağlamlığının qorunmasını təmin etməkdir.

Bunun üçün Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən ISO 7886-1:2017 "Sterile hypodermic syringes for single use - Part 1: Syringes for manual use" (İnyeksiya üçün birdəfəlik steril şprislər. Hissə 1: Əl ilə istifadə üçün şprislər) beynəlxalq standartı əsasında işlənib hazırlanan AZS 877: 2019 (ISO 7886-1: 2017) "İnyeksiya üçün birdəfəlik steril şprislər Hissə 1: Əl ilə istifadə üçün şprislər" dövlət standartı təsdiq edilib.

Birdəfəlik şprislərlə bağlı milli standartın tətbiq olunmasının əhəmiyyəti haqqında danışan həkim-ekspert Rasif Bağırov qeyd etdi ki, birdəfəlik şprislərdən geniş miqyaslı istifadə dövlət əhəmiyyətli məsələdir: "Məlumat üçün bildirim ki, Azərbaycanda şpris istehsal edən bu ilk müəssisə "Diamed Co" şirkətidir. Burada istehsal edilən şprislər səhiyyə sistemində istifadə edilir və beləliklə, Azərbaycan bu sahədə idxaldan asılılığı aradan qaldırıb".



**Həmsöhbətimiz hesab edir ki, ölkədə istehsal olunan şprislər saxta tibbi ləvazimatların dövriyyədən çıxmasına səbəb olacaq: "Birdəfəlik şprislərlə bağlı milli standartın tətbiq olunması bu sahədə yaşanan problemləri həll etməklə yanaşı, yerli tibbi ləvazimatların xaricdə tanınmasına səbəb olacaq".**

*Günel CƏLİLOVA*

# Valideyn hüququndan məhrum edilən azərbaycanlıların sayı çoxalır...

**Azərbaycanda valideynlik hüququndan məhrum edilənlərin statistikası açıqlanıb. Açıqlanan statistik rəqəmlərə əsasən, ölkədə valideynlik hüququndan məhrum edilənlərin sayı artıb. Statistik rəqəmlərə əsasən, bu il Azərbaycanda 55 nəfər valideynlik hüququndan məhrum edilib.**

*"...onun hər hansı psixoloji probleminin olması və yaxud qeyri-etik davranış nümayiş etdirməsinə görədir"*

***Əli İsaoğlu:** "Təcrübədə daha çox atalıq hüququndan məhrumetmə hallarına rast gəlinir"*

Ümumilikdə, 2005-2018-ci illər ərzində valideynlik hüququndan məhrum edilənlərin sayı 1530 nəfər olub. Bundan əlavə, ötən il 35 nəfərin valideyn hüquqları məhdudlaşdırılıb.

Ümumiyyətlə, qanunvericilikdə valideynlik hüququndan məhrumolma belə tənzimlənir: ailədə valideynlər öz valideynlik vəzifələrini yerinə yetirmədikdə; alimenti qəsdən ödəmədikdə; heç bir üzürlü səbəb olmadan uşağı doğum evindən və yaxud hər hansı müalicə, tərbiyə, əhalinin sosial müdafiəsi müəssisəsindən və digər analoji müəssisələrdən götürməkdən imtina etdikdə, valideynlik hüquqlarından sui-istifadə etdikdə; uşaqlarla amansız davrandıqda, onları fiziki və psixi təzyiq altında saxladıqda, xroniki alkoqol və narkomaniya xəstəsidirsə, uşaqların və ya ərinin (arvadının) sağlamlığına və ya həyatına qarşı qəsdən edilmiş cinayət törətdikdə və digər hallarda ata və ya ana valideynlik hüququndan məhrum olunur.

Azərbaycanda valideynlik hüququndan məhrum olunanların sayının artması barədə fikir bildirən hüquqşünas Əli İsaoğlu qeyd etdi ki, valideynlik hüququndan məhrumetmə yalnız məhkəmə yolu ilə mümkündür. Əslində, qanunvericiliyimiz "valideynlik hüququndan məhrumetmə" anlayışı altında həm ananın, həm də atanın bu hüquqlardan məhrum edilməsi şərtlərini bərabər əsaslar üzrə müəyyən edib: "Təcrübədə daha çox atalıq hüququndan məhrumetmə hallarına rast gəlinir. Bu da alimentin ödənilməməsi ilə bağlıdır. Ancaq onu da deyim ki, Azərbaycanda analıq hüququndan məhrumetmə halı da var. Bu daha çox ananın uşağa baxmaq qabiliyyətində olmaması, onun hər hansı psixoloji probleminin olması və yaxud qeyri-etik davranış nümayiş etdirməsinə görədir".



**Həmsöhbətimiz onu da vurğuladı ki, Avropa ölkələrində valideynlik hüququndan məhrumetmə halları daha çoxdur: "Avropa ölkələrində valideynlərdən ikisi və ya biri övladına qarşı şiddət göstərərsə, həmin şəxs valideynlik hüququndan məhrum edilir. Artıq bu hal ölkəmizdə də tətbiq olunur. Valideynindən mütəmadi olaraq şiddət görən uşaqlar aidiyyəti qurumlara müraciət edirlər, ata-ana haqqında qanun çərçivəsində qərar qəbul olunur".**

*Günel CƏLİLOVA*

# Qədim dillərin öyrədilməsi üzrə elmi-tədqiqat laboratoriyası - Azərbaycanda ilk...

**Azərbaycanda qədim dünya dillərinin öyrənilməsi sahəsində ciddi problemlər mövcuddur. Bu sahədə mütəxəssislərin hazırlanması sahəsində, demək olar ki, aparıcı elmi qurumlarda çox az iş görülür. Bütövlükdə isə Azərbaycanda qədim dillər üzrə mütəxəssislərin yetişdirilməsi probleminin həlli üçün addımlar atılmalıdır.**

Ölkəmizdə "ölü" dillər üzrə mütəxəssislərin olmaması halı da diqqəti cəlb edir.

Azərbaycan Dövlət Dillər Universitetində Qədim dillər elmi-tədqiqat laboratoriyasının yaradıldığı haqqında məlumat yayılıb.

Ümumiyyətlə, Azərbaycan dilinin və mədəniyyəti tarixinin daha əsaslı tədqiqini təmin etmək üçün qədim dillərin öyrənilməsi sahəsində böyük işlər görülməlidir.

Azərbaycan Dillər Universitetindən (ADU) qəzetimizə verilən məlumata görə, yenicə fəaliyyət göstərməyə başlayan Qədim dillər elmi-tədqiqat laboratoriyasında bir sıra qədim dünya dilləri öyrədiləcək. Universitetdən məlumat verdilər ki, ADU-da fəaliyyətə başlayan Qədim dillər elmi-tədqiqat laboratoriyası yaxın gələcəkdə Azərbaycanın bu sahə ilə maraqlanan bütün mütəxəssisləri üçün gərəkli və vacib elm mərkəzinə çevriləcək. "Mərkəzdə qədim yunan, latın, sanskrit dilləri və mədəniyyətlərinin öyrənilməsi istiqamətində işlər aparılacaq" - deyə ADU-dan bildirdilər.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, professor, dilçi-alim Buludxan Xəlilov "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanda qədim dünya dillərinin öyrənilməsi sahəsində ciddi problemlər mövcuddur. Bu sahədə mütəxəssislərin olmadığını deyən B.Xəlilov hesab edir ki, həmin istiqamətdə genişmiqyaslı işlər görülməlidir. "Ümumiyyətlə, Sovetlər dönəmində keçmiş ittifaq məkanında qədim dillər üzrə mütəxəssislər olub. Azərbaycanda da belə mütəxəssislər var idi. Professor Yusif Yusifov qədim dilləri yaxşı bilirdi. Ona görə də qədim dillərin materialları əsasında dünya və Azərbaycan tarixinin yazılması sahəsində xeyli iş gördü. Əvvəllər Moskvada, Sankt-Peterburqda qədim dillər üzrə mütəxəssislər yetişdirilsə də, təəssüflər olsun ki, sonradan bu ənənə qırıldı. Yəni kadrlar yetişmədi. Əvvəlki dövrdə yetişən kadrların özlərinə isə imkan yaradılmadı ki, onlar özlərindən sonra kadr hazırlasınlar. Sovetlər Birliyi dağıldıqdan və qədim dillər üzrə mütəxəssislər dünyasını dəyişdikdən sonra Azərbaycanda qədim dillər üzrə mütəxəssislər yox dərəcəsindədir. Düzdür, indi qədim dil materialları üzərində tədqiqatlar aparan dilçilər var. Amma bu onların qədim dillər üzrə mütəxəssis olması anlamına gəlmir. Bu alimlər dilin lüğət tərkibindən sözləri götürüb onların üzərində müqayisələr aparırlar. Qədim dil mütəxəssisi olmaq üçün mixi, şumer, urartu, kurrik yazılarını oxumaq lazımdır. Yəni bu sahənin öyrənəni olmalıdır. Bu sahədə tədqiqatlar gedir, amma etiraf edək ki, bu proses həvəskar səviyyədə həyata keçirilir. Bunun üçün məktəb yaranmalıdır".

B.Xəlilov qeyd etdi ki, Prezident İlham Əliyevin dilçiliklə, Azərbaycan dilinin inkişafı ilə bağlı verdiyi sərəncamlarda, imzaladığı sənədlərdə əsas məsələlərdən biri ölkəmizdə qədim dillər üzrə mütəxəssislərin hazırlanması olub. B.Xəlilovun sözlərinə görə, Azərbaycan dili ilə bağlı Dövlət Proqramında xüsusi olaraq qeyd edilib ki, qədim dillər üzrə mütəxəssislərin hazırlanmasına xüsusi diqqət yetirilməlidir: "Hesab edirəm ki, qədim dillər üzrə mütəxəssislər hazırlanması üçün xüsusi vəsait ayrılmalıdır. Akademiyanın Nəsimi adına Dilçilik İnstitutu keçmiş postsovet məkanında qədim dilləri öyrənən universitetlərin, mərkəzlərin mütəxəssisləri ilə əlaqələr qurmalıdır, bu sahədə aspirantlar, doktorantlar, dissertantlar yetişdirilməlidir. Təəssüflər olsun ki, bu sahədə çox geridə qalırıq. Bununla da qədim dövrümüzü öyrənməkdə çətinliklər çəkirik. Bu nəyə imkan yaradır? Azərbaycan və dünya tarixini öyrənən mütəxəssislər çox zaman başqa xalqların nümayəndələri olublar. Onlar dilin, ədəbiyyatın, mədəniyyətin tarixini də istədikləri şəkildə yazıblar, yazırlar da. Azərbaycan müstəqil dövlətdir və Prezidentimizin o sərəncamından istifadə edərək bu işə elmi-tədqiqat institutlarını cəlb etməklə hər sahə üzrə mütəxəssislər yetişdirilməlidir. Sözsüz ki, bu işə xüsusi maliyyə vəsaiti ayrılmalıdır. Bu sahədə mütəxəssislərin yetişdirilməsi üçün onlar keçmiş Sovet məkanı respublikalarında fəaliyyət göstərən qədim dil mərkəzlərinə, institutlarına, şöbələrinə göndərilməlidirlər ki, kadrlar yetişdirilsin.

Azərbaycan Dövlət Dillər Universitetində Qədim dillər üzrə elmi-tədqiqat laboratoriyasının yaradılmasını alqışlamaq lazımdır. Amma bu laboratoriyanı yaratmaqdan əvvəl orada işləyəcək qədim dillər üzrə mütəxəssislər olmalıdır. Yaradırıqsa, bu gözəldir, amma yaratdığımız sahədə mütəxəssis olmasa, orada uğurlar əldə edə bilməyik. Hesab edirəm ki, dünya ilə ayaqlaşmaq, dünyada gedən tədqiqatları yaxından izləmək üçün xarici ali məktəblərin müfaviq şöbələri ilə də əlaqələr yaratmalıyıq. Həmin yerlərdə gənclər aspirant, doktorant kimi yetişməlidir. Gənclər qədim dilləri öyrənmək üçün müxtəlif yerlərə üz tutmalıdırlar. Bu, dövlət müstəqilliyimizin bizə verdiyi böyük şansdır".




**ADU:** *"Mərkəzdə qədim yunan, latın, sanskrit dilləri və mədəniyyətlərinin öyrənilməsi istiqamətində işlər aparılacaq"*

**Buludxan Xəlilov:** *"Qədim dillər üzrə mütəxəssislər hazırlanması üçün xüsusi vəsait ayrılmalıdır"*

***İradə SARIYEVA***

# Doktoranturaya qəbul qaydaları sadələşdirilir - gələcək alimlər hansı artıq problemlərdən qurtulur...

**Azərbaycanda ali məktəblərin doktorantura, aspirantura kimi pillələrinə qəbul qaydalarının bir qədər sərt olması magistraturanı bitirən gənclərin bu sahəyə meylinin qarşısını alırdı. Gələcək alimlər bu pilləni uğurla adlamalıdırlar ki, elmi fəaliyyətlə məşğul olsunlar, amma buradakı bəzi qaydalar onların heç də hamısının bu istiqaməti seçməsinə şərait yaratmırdı.**

**İlqar Orucov:** *"Yeni qaydalara görə, qüvvədə olan xarici dil sertifikatlarına malik olan namizədlər xarici dil imtahanından azad olunacaqlar"*



*"Əsas məsələ odur ki, doktoranturaya qəbul prosesində şəffaflıq, obyektivlik olsun"*

Yayılan rəsmi məlumatlara görə, doktoranturaya qəbul qaydalarında dəyişiklik edilib. Onu da qeyd edək ki, indiyə qədər əksər mütəxəssis doktoranturaya qəbul qaydalarının yumşaldılmasının tərəfdarı olaraq çıxış edib.

Məlumatlara görə, Nazirlər Kabineti "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nda etdiyi dəyişiklik nəticəsində fəlsəfə doktoru proqramı üzrə doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan (tibbi təhsildə həkim-mütəxəssis) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar. Doktoranturaya qəbul olunmaq istəyənlər xarici dildən (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır), fəlsəfədən və ixtisas fənnindən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər. Xarici dildən imtahanda iştirak etməyənlər fəlsəfə üzrə imtahana, fəlsəfə üzrə imtahanda iştirak etməyənlər isə ixtisas fənnindən imtahana buraxılmırlar.

Xarici dil üzrə imtahan Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra - DİM) tərəfindən keçirilir. Xarici dil üzrə imtahanın məzmunu, vaxtı, imtahan nəticələrinin qiymətləndirilməsi qaydası və keçid balı AMEA və nazirliklə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir.

Xarici dildən imtahanda keçid balını toplayan şəxslər fəlsəfədən imtahana buraxılırlar. Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına (IELTS, TOEFL, TestDaF, DELF, DALF) malik olanlar xarici dil üzrə qəbul imtahanından azad olunurlar.

Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi AMEA və nazirliklə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir. Fəlsəfə fənni üzrə imtahan doktoranturaya qəbulu həyata keçirən ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilatların tabe olduqları müvafiq qurumlar tərəfindən müəyyən olunmuş ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilatlarda həyata keçirilir. İmtahanın nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilir. İmtahanın məzmunu (proqramı) AMEA və nazirlik tərəfindən birgə müəyyənləşdirilir.

İxtisas fənnindən qəbul imtahanını doktoranturanın fəaliyyət göstərdiyi ali təhsil müəssisəsinin, elmi müəssisə və təşkilatın rəhbəri tərəfindən yaradılan komissiya həyata keçirir və imtahana yalnız fəlsəfə fənnindən "məqbul" alan şəxslər buraxılırlar. Komissiyanın tərkibində müvafiq ixtisas üzrə ən azı iki elmlər doktoru və ya professor olmalıdır. Nəzərdə tutulan elmi rəhbərlər də komissiyanın üzvü ola bilərlər. Komissiyanın sədri ali təhsil müəssisəsinin, elmi müəssisə və təşkilatın rəhbəri, yaxud elmi işlər üzrə müavini təyin edilir. Bəzi ixtisaslar üzrə elmlər doktorları və professorlar olmadıqda, müvafiq olaraq komissiyanın tərkibinə fəlsəfə doktorları (elmlər namizədləri) və dosentlər daxil edilir.

Ali təhsil müəssisələrində, elmi müəssisə və təşkilatlarda yaradılmış qəbul komissiyaları imtahanların nəticələri əsasında müvafiq qərar qəbul edirlər. Qərar barədə məlumat şəxsin ərizəsində göstərdiyi ünvana və ya elektron poçt ünvanına göndərilir. Komissiyanın qərarından razı olmayan şəxslər qərar qəbul edildikdən və bu barədə məlumat aldıqdan sonra 3 (üç) iş günü müddətində ali təhsil müəssisəsinin, elmi müəssisə və təşkilatın rəhbərinə apelyasiya ərizəsi ilə müraciət edə bilər. Müəssisə rəhbəri 5 (beş) iş günü müddətində müraciətə baxmalı və əsaslandırılmış qərar qəbul etməlidir. Qərardan inzibati qaydada və (və ya) məhkəməyə şikayət edilə bilər.

Dissertantlıq yolu ilə "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq hüququna ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan (tibbi təhsildə həkim-mütəxəssis), müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan elmi və elmi-pedaqoji kadrlar malikdirlər. "Elmlər doktoru" elmi dərəcəsi almaq hüququna "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi dərəcəsi olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan elmi və elmi-pedaqoji kadrlar malikdirlər.

Dissertantlıq yolu ilə "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq istəyən şəxslər xarici dildən (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) bu Qaydaların 3.10-1-ci bəndində göstərilən qaydada keçirilən qəbul imtahanı verirlər.

"Fəlsəfə doktoru" elmi dərəcəsi üzrə dissertantlıq yolu ilə təhsil alan şəxslər müəyyən olunmuş qaydada ixtisas fənnindən və xarici dildən, həmçinin, ixtisas uyğunluğu nəzərə alınmaqla, digər fəndən də fəlsəfə doktoru imtahanları verirlər.

Məsələyə münasibət bildirən Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucovun sözlərinə görə, "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nda edilən dəyişiklik əsasən fəlsəfə doktoru hazırlığı ilə bağlıdır. "Əvvəlki qaydalar belə idi ki, fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olanlar, ilk növbədə, magistratura pilləsini bitirməliydi, yaxud ona bərabər tutulan pilləni bitirməliydi. Bu, əvvəlki beşillik ali təhsil üzrə magistraturaya qədər təhsil almış şəxslərə şamil olunur. Bundan əvvəlki qaydalara görə, bu prosesdə müsabiqə əsasında Azərbaycan vətəndaşları iştirak edə bilərdilər. Yeni doktoranturaya sənədlər bu şəkildə qəbul olunurdu. Amma indiki dəyişikliyə görə, magistr dissertasiyasını müdafiə edən vətəndaşlar müsabiqə üzrə fəlsəfə doktoru proqramı üzrə prosesə qatılacaqlar və tibbi təhsildə isə həkim mütəxəssis magistr dissertasiyasını müdafiə edənlərə bərabər tutulacaq. Yeni qaydalara görə, doktoranturaya qəbul olunmaq istəyənlər rus dili istisna olmaqla, xarici dillərdən ixtisasına uyğun olaraq sərbəst seçim edərək, o cümlədən, fəlsəfədən və ixtisas fənnindən imtahan verməlidirlər. Amma burada baş verən dəyişikliklərdən biri ondan ibarətdir ki, xarici dil imtahanında iştirak etməyənlər fəlsəfə imtahanına buraxılmayacaqlar, fəlsəfə üzrə imtahanda iştirak etməyənlər isə ixtisas fənnindən imtahana buraxılmayacaqlar. Yeni qaydalara əsasən, eyni zamanda, xarici dil üzrə imtahanı Dövlət İmtahan Mərkəzi həyata keçirəcək, amma həm keçid balı, həm də imtahanın nəticələrinin qiymətləndirilməsi qaydası, onun məzmunu Təhsil Nazirliyi və Milli Elmlər Akademiyası tərəfindən qiymətləndiriləcək. Yeni nəticələri DİM hər iki qurumla razılaşdıracaq. Xarici dil üzrə keçid balını toplayanlar imtahana buraxılacaq. Burada bir məsələ ondan ibarətdir ki, yeni qaydalara görə, xarici dil üzrə qüvvədə olan xarici dil sertifikatlarına malik olan namizədlər xarici dil imtahanından azad olunacaqlar. Düşünürəm ki, bu çox vacib bir məqamdır. Çünki beynəlxalq dil sertifikatları artıq həmin şəxsin xarici dili mənimsəməsinin səviyyəsini göstərən faktordur və əlbəttə, bu mütləq nəzərə alınmalı idi".

İ.Orucov onu qeyd etdi ki, dəyişikliyə görə, fəlsəfə imtahanından "məqbul" alan şəxslər imtahana buraxılacaq, bundan sonrakı proses ixtisas-fənn imtahanı ilə bağlıdır. "Bu prosesi də aidiyyəti müəssisə tərəfindən yaradılan komissiya yerinə yetirəcək. Əslində, qəbul mərhələlərində elə də ciddi bir dəyişiklik yoxdur. Əvvəllər də proses analoji qayda ilə həyata keçirilirdi. İddiaçı hansı müəssisənin doktorantura pilləsinə qəbul olunmaq istəyirdisə, həmin müəssisədə formalaşmış komissiya ondan imtahan götürürdü, bu, yeni qaydalarda da belə olacaq. Hesab edirəm ki, doktorantura pilləsinə qəbul o şəkildə olsun ki, gənclərin ona əli çatsın. Əsas məsələ odur ki, doktoranturaya qəbul prosesində şəffaflıq, obyektivlik olsun, ən vacibi budur. Bilirsiniz ki, elmi kadrların hazırlığı məsələsi, eyni zamanda, dissertantura yolu ilə də həyata keçirilir. Hər iki istiqamətdə qəbul prosesində şəffaflığın olması çox önəmlidir. Biz gələcək üçün elmi kadrları seçərkən, şəffaflığı təmin etməliyik. Məsələ bundadır. İnanıram ki, xarici dil imtahanını DİM həyata keçirəcək və burada şəffaflıq təmin olunacaq. Amma digər mərhələlərdə də bu şəffaflıq təmin edilməlidir. Bu çox ciddi məsələdir və buna heç vaxt birmənalı münasibət olmayıb. Hesab edirəm ki, imtahanın digər mərhələləri də DİM-ə verilməlidir. Bu bir tərəfdən yaxşı olsa da, digər tərəfdən elmlə məşğul olan mütəxəssisi yalnız test imtahanından keçirmək düzgün deyil. Amma hesab edirəm ki, bu imtahanların monitorinqi çox ciddi aparılmalıdır. Həm fəlsəfə, həm də ixtisas imtahanının monitorinqinə çox ciddi fikir verilməlidir" - deyə İ.Orucov vurğuladı.

***İradə SARIYEVA***

№ 203 (4101) ■ Qiymәti: 40 qәpik

# BAKI XӘBӘR

15 NOYABR 2019-cu il

www.baki-xeber.com

## "Azercell"in dәstәyilә sayca beşinci Uşaq Paralimpiya Oyunları keçirilib

**"Azercell Telekom" MMC, UNİCEF-in Azәrbaycan nümayәndәliyi, BP vә "Toyota" şirkәtlәrinin dәstәyi, Azәrbaycan Respublikası Milli Paralimpiya Komitәsinin tәşkilatçılığı ilә 14 noyabr tarixindә Abşeron Olimpiya İdman kompleksindә V Uşaq Paralimpiya Oyunları keçirilib.**



Açılış mәrasimindә çıxış edәn "Azercell Telekom" MMC-nin prezidenti Vahid Mürsәliyev Paralimpiya Oyunlarını möhkәmliyin, iradәnin qeyri-şәrtsiz qәlәbәsi, әzmkarlıq, özünә inam adlandırıb vә bütün iştirakçılara uğurlar arzu edib.

Yarışda yerli idmançılarımızla yanaşı, Gürcüstan Respublikasından olan iştirakçıların da yer aldığı 180 paralimpiyaçı 7 idman növündә qüvvәlәrini sınayıb. Qәlәbә qazanan iştirakçılar kubok, medal vә diplomlarla mükafatlandırılıb.

Qeyd edәk ki, 2013-cü ildә beynәlxalq tәcrübәdә ilk dәfә olaraq Azәrbaycan Respublikası Milli Paralimpiya Komitәsinin nәzdindә Uşaq Paralimpiya Komitәsi yaradılıb. Komitәnin fәaliyyәtinin әsas mәqsәdi sağlamlıq imkanları mәhdud uşaqların idmana cәlb olunması yolu ilә ehtiyat idmançıların hazırlanması, onların abilitasiya vә reabilitasiya yolu ilә cәmiyyәtә inteqrasiyasının tәmin edilmәsidir. Sosial layihәlәrә xüsusi diqqәt ayıran "Azercell Telekom" MMC bu önәmli tәşәbbüsә öz töhfәsini vermәk üçün 2014-cü ildәn etibarәn komitәnin fәaliyyәtini dәstәklәyir.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.

## Elan

Qarayev Vadim Nәsrәddinoviçә Azәrbaycan Respublikası MN-yi tәrәfindәn verilmiş 000917 nömrәli Qarabağ müharibәsi veteranı vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

---

Cәlahani Sәrxan Mәmmәdәli oğlunun adına, Bakı şәhәri, Yeni Yasamal yaşayış massivi, Ә.Әhmәdov küçәsi 24/B, mәnzil 1464 ünvanının "Şәrur MTK" tәrәfindәn verilmiş müqavilәsi itdiyi üçün etibarsız sayılır.

---

Manafova Arzu Sabir qızına Bakı şәhәri, Yasamal rayonu, Yeni Azәrbaycan Partiyası tәrәfindәn verilmiş üzvlük vәsiqәsi itdiyi üçün etibarsız sayılır (AZE N17077195, ASAN 3).

---

Quliyev Nәriman Nazim oğlunun adına, Sumqayıt şәhәri, 48-ci mәhәllә, ev 1, mәnzil 100 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

---

Hәmidova Nazilә Yaşar qızına mәxsus, B.Sәrdarov küçәsi, ev 3, mәnzillәr 46, 47, 48 ünvanlarının reyestr N77, 11/50 sәhifә, 11585/1610/1058 qeydiyyat vәsiqәlәri (çıxarış) itdiyi üçün etibarsız sayılır.

---

Hәmidov Yaşar Әhәd oğluna mәxsus, Bakı şәhәri, Sәbail rayonu, Bülbül prospekti, ev 14, mәnzil 22 ünvanının RX N0447921 HDQHDӘDR-dәn çıxarışı itdiyi üçün etibarsız sayılır.

---

Hәmidova Nazilә Yaşar qızına mәxsus, Bakı şәhәri, Sәbail rayonu, Nizami küçәsi 60 ünvanında yerlәşәn 144, 5 kv.m. qeyri-yaşayış sahәsinin N001851, 24.10.2002-ci il tarixli MHH şәhadәtnamәsi itdiyi üçün etibarsız sayılır.

## "Nar"ın sosial layihәsi nüfuzlu beynәlxalq müsabiqәdә qalib oldu

**Hәyata keçirdiyi sosial әhәmiyyәtli layihәlәri ilә seçilәn "Nar" böyük uğura imza ataraq beynәlxalq sәviyyәli müsabiqәdә mükafata layiq görülüb.**

Belә ki, noyabrın 12-dә Rusiyanın paytaxtı Moskvada keçirilmiş "Eventiada IPRAGolden World Awards 2019" müsabiqәsinin mükafatlandırma mәrasimindә "Nar"ın "Tәlim Mәktәbi" layihәsi "KSM üzrә әn yaxşı layihә" nominasiyasında qalib olub. Qeyd edәk ki, bu nominasiya uğrunda mübarizәdә mobil operator "Nestle" vә "Volkswagen" kimi nüfuzlu şirkәtlәrin layihәlәrini geridә qoyaraq birincilik әldә edib.

"Müştәriyönümlu mobil operator olaraq KSM strategiyamızın tәmәlindә cәmiyyәt üçün dәyәr yaratmaq vә sözün hәqiqi mәnasında, faydalı olmaqla insanların hәyatında müsbәt dәyişikliklәrә sәbәb olmaq dayanır. "Tәlim Mәktәbi" layihәsi ilә biz fiziki mәhdudiyyәtli insanların peşәyә yiyәlәnmәsinә vә cәmiyyәtә inteqrasiyasına öz töhfәmizi veririk. Şadam ki, bu layihә öz missiyasını uğurla yerinә yetirdi vә ilk dәfә olaraq Azәrbaycanı tәmsil edәn bir şirkәt bu nüfuzlu platformada yüksәk qiymәtlәndirildi", - deyә mükafatlandırma mәrasimindә çıxış edәn "Nar"ın İctimaiyyәtlә Әlaqәlәr Departamentinin rәhbәri Әziz Axundov bildirib.

Müsabiqә yüksәk standartlara, innovativ yanaşmaya, planlaşdırma vә hәyata keçirilmә keyfiyyәtinә görә әn yaxşı kommunikasiya layihәlәrini dәyәrlәndirir. Bu il Rusiya, MDB, Şәrqi Avropa vә Mәrkәzi Asiyadan 13 ölkәni tәmsil edәn dövlәt vә ictimai tәşkilatlar, elәcә dә özәl şirkәtlәrin ictimaiyyәtlә әlaqәlәr sahәsindә layihәlәri yarışıb. Qeyd edәk ki, bütün layihәlәr müsabiqәnin Ekspertlәr Şurası tәrәfindәn qiymәtlәndirilir. Burada iri beynәlxalq şirkәtlәrdәn, nüfuzlu universitetlәrdәn vә dövlәt qurumlarının PR şöbәlәrindәn peşәkar mütәxәssislәr tәmsil olunur.

Bildirәk ki, bu, "Nar"ın davamlı olaraq inkişaf etdirdiyi KSM strategiyasının ilk uğuru deyil. Belә ki, 2014-cü ildә Fransada keçirilmiş әnәnәvi "Cannes Lions" festivalında "Nar Donor" layihәsi "Gümüş Şir" (Silver Lion) mükafatına layiq görülmüşdü. Mobil operatorun hәyata keçirdiyi digәr sosial layihәlәr haqda daha әtraflı nar.az sәhifәsindәn, "Eventiada IPRA Golden World Awards" (Beynәlxalq İctimaiyyәtlә Әlaqәlәr Assosiasiyası Qızıl Dünya Mükafatı) müsabiqәsi haqqında mәlumatı isә buradan әldә edә bilәrsiniz.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. "Nar" şәbәkәsi hazırda ölkә әhalisinin 97,6%-ni әhatә edir vә 8600-dәn artıq baza stansiyası ilә 2,3 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir.





**Qoç** - Çox әlverişli gündür. Ondan ciddi, vacib vә faydalı iş üçün istifadә etmәk yaxşı olardı. Dostlarınızdan alacağınız maraqlı informasiya sizi maraqlı fikirlәrә sövq edә bilәr. Yaradıcılıq potensialı yüksәkdir.



**Buğa** - Çәtin gün olacaq. Çәtin mәsәlәlәri hәll etmәlisiniz. Özünüz dә ehtimal edirsiniz ki, bu mәsәlәlәrin doğru cavabı mövcud deyil. Diskussiyaları konstruktiv mәcrada saxlamaq, şәxsiyyәtә keçmәmәk heç cür alınmır.



**Әkizlәr** - Bir qәdәr gözlәmәk lazımdır: yeni başlanğıclar, cәsur eksperimentlәr vә yaradıcılıq axtarışları üçün әlverişli vaxt bir qәdәr sonra başlayacaq. İndi әsas mәsәlә inciklikdәn yayınmaqdır.



**Xәrçәng** - Bu gün asan olmayacaq. Böyük ümidlәr bәslәdiyiniz planı hәyata keçirmәk mümkün olmayacaq. Üstәlik, dәrhal hәllini tәlәb edәn yeni mәsәlәlәr ortaya çıxacaq. Bәzәn vәziyyәt, demәk olar ki, ümidsiz tәsir bağışlayacaq.



**Şir** - Uğursuzluqlar vaxtı gәldi. Bu gün işlәriniz gәtirmәyәcәk. Bürcün nümayәndәlәri çәtin vәziyyәtlәrә düşәcәk, aşılmaz çәtinliklәrlә qarşılaşacaqlar. Özü dә kömәyә heç kim tәlәsmәyәcәk.



**Qız** - Siz çox şeyә qadirsiniz vә maraqlı imkanları әldәn buraxmırsınız. Ona görә dә gün hәddindәn artıq mәhsuldar olacaq. Danışıqlara çәkinmәdәn gedin: ünsiyyәtdә olacağınız adam nә qәdәr hörmәtli olsa, bir o qәdәr yaxşıdır.



**Tәrәzi** - Hәm uğurlu, hәm dә maraqlı gündür. Üstәlik, o, romantik tonlarla bәzәnә bilәr. Bәzәn işlәriniz gәtirәcәk, bәzәn isә fenomenal şәkildә gәtirәcәk. Sanki heç nә etmәyә ehtiyac yoxdur: hәyat onsuz da sizә rifah gәtirәcәk.



**Әqrәb** - Bu gün peşә sahәsindәki çәtinliklәrlә yadda qalacaq. Xüsusilә, rәhbәrliklә ciddi fikir ayrılıqları yarana bilәr. Siz bundan sonra nә etmәk - kompromis, yoxsa yeni iş yeri axtarmaq barәdә düşünmәyә başlayacaqsınız.



**Oxatan** - Sizi çox çәtin gün gözlәyir. Yalnız öz gücünüzә arxalanmalısınız. Düzdür, kömәkçilәriniz var, amma daim onlara tәkan vermәk, nәzarәt etmәk lazım gәlir. Sәfәrlәrdә ehtiyatlı olun.



**Oğlaq** - Bu gün diqqәti şәxsi işlәrinizә yönәltmәk kifayәt qәdәr çәtin olacaq: sizi tez-tez yayındıracaq vә boş şeylәrә görә tәngә gәtirәcәklәr. Çoxdan әmәkdaşlıq etdiyiniz adamlarla küsüşә bilәrsiniz.



**Dolça** - Uzun müddәt vә ciddi-cәhdlә qurduğunuz planların reallaşması üçün әlverişli mәqam yetişdi. Sizә heç nә mane ola bilmәz - nә hadisәlәrin әlverişsiz inkişafı, nә müttәfiqinizin sәhvi, nә dә bәdxahınızın fitnәsi.



**Balıqlar** - Әvvәllәr başladığınız işlәri sakitcә başa çatdırmaq, son vaxtlar küsdüyünüz adamlarla münasibәt qurmağa imkan verәn әlverişli gündür. Ailәdәki fikir ayrılıqlarına son qoymaq olar.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## "Bakcell" Azәrbaycanda әn sürәtli mobil internet tәqdim edir

**"Bakcell" növbәti dәfә internetin sınaq vә tәhlili sahәsindә dünya lideri olan "Ookla®" tәrәfindәn "Azәrbaycanın әn sürәtli mobil şәbәkәsi" kimi tanınıb.**

Şirkәt 2019-cu ilin I vә II rübü üzrә "Әn sürәtli mobil şәbәkә üzrә Speedtest mükafatı"nın qalibi olub. Bu mükafatı qazanmaq üçün "Bakcell" ölkәnin mobil rabitә bazarında fәaliyyәt göstәrәn operatorlar arasında әn yüksәk ortalama yüklәmә sürәti, әn yüksәk ortalama mәlumat göndәrmә sürәti vә әn yüksәk "SpeedScore" (sürәt balları) nәticәsini nümayiş etdirib.

"Ookla"nın "Speedtest" platforması vasitәsilә hәyata keçirilәn 100 000-ә yaxın test tәsdiqlәyir ki, "Bakcell" şәbәkәsindә orta yüklәmә sürәti saniyәdә 37.99 meqabit, orta mәlumat göndәrmә sürәti isә saniyәdә 16.79 meqabitә bәrabәrdir. "Bakcell" öz abunәçilәrinә tәqdim etdiyi xidmәtlәrin keyfiyyәtini artırmaq üçün әlindәn gәlәni edir, çünki abunәçilәrimiz bizdәn mükәmmәl әhatә dairәsi vә әn yaxşı mobil internet sürәti gözlәyir. Mәn şadam ki, bu istiqamәtdә gördüyümüz işlәr növbәti dәfә "Ookla" tәrәfindәn yüksәk qiymәtlәndirilib vә "Bakcell" şәbәkәsinin Azәrbaycanda әn sürәtli olması bir daha da tәsdiq olunub. "Bakcell" öz abunәçilәrini bütün ölkә әrazisindә yüksәk keyfiyyәtli video izlәmәk vә yaxud sosial şәbәkәlәrdәn istifadә etmәk kimi müasir mobil telekommunikasiya xidmәtlәri ilә tәmin etmәkdәn mәmnunluq duyur. Mәn bu mükafatı Azәrbaycanın әn üstün mobil şәbәkәsini abunәçilәrimiz üçün daha da yaxşı etmәk öhdәliyi kimi qәbul edirәm vә söz verirәm ki, bu istiqamәtdә daha böyük sәylә çalışacağıq", - deyә "Bakcell" şirkәtinin baş icraçı direktoru Rainer Ratgeber bildirib. "Bakcell" artıq üçündü dәfәdir Azәrbaycanın әn sürәtli mobil şәbәkәsi adına layiq görülür. "Hәr gün "Speedtest" üzәrindәn aparılan milyonlarla sınaq sayәsindә "Ookla" bütün dünya üzrә internet nәticәlәri barәdә dәqiq vә әtraflı mәlumatlara malikdir. Ciddi araşdırma vә tәhlilimizә әsaslanaraq, biz böyük mәmnuniyyәtlә tәsdiq edirik ki, "Bakcell" Azәrbaycanın әn sürәtli mobil şәbәkәsidir. Bu mükafat "Bakcell" abunәçilәrinin 2019-cu ilin I vә II rübü әrzindә әldә etdiyi xüsusi xidmәt keyfiyyәtinin bariz göstәricisidir" - deyә, "Ookla"nın icraçı vitse-prezidenti Jamie Steven bildirib.

"Bakcell" öz şәbәkәsini vә göstәrilәn xidmәtlәrin keyfiyyәtini daha da tәkmillәşdirәrәk bundan sonra da abunәçilәrini yüksәk keyfiyyәti istifadәçi tәcrübәsi ilә tәmin edәcәk.

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.